QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Səs

№ 187 (7355)

14 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

Dünyanın diqqəti Yaxın Şərq Sülh Sammitində

Azərbaycan Prezidenti İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı qlobal siyasi arenada ölkəmizin nüfuzunun daha bir təzahürüdür

İrana qarşı Qərbin hərbi müdaxilə ehtimalı region üçün nə vəd edir?

Qlobal quraqlıq və su böhranı: Azərbaycanı nə gözləyir?

43 milyon insan dünyanı görə bilmir

Əcnəbilərlə ailə qurmağa artan maraq: təsadüf, yoxsa dövrün tələbi?

Vətən sevdalı böyük şair – Məmməd Araz



Moped sürmək istəyənlərə XƏBƏRDARLIQ - sürücülük vəsiqəsi tələb olunacaq

Dünyanın diqqəti Yaxın Şərq Sülh Sammitində

Azərbaycan Prezidenti İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı qlobal siyasi arenada ölkəmizin nüfuzunun daha bir təzahürüdür

Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirə işgüzar səfəri qlobal siyasətdə ölkəmizin nüfuzunun daha bir təzahürüdür. Misirdə işgüzar səfərdə olan dövlətimizin başçısı Sammitin keçiriləcəyi Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəlib. Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi dövlətimizin başçısını salamlayıb.

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını salamlayıb, Azərbaycan və ABŞ prezidentləri birgə foto çəkdiriblər.

ÇOXŞAXƏLİ VƏ TARAZLAŞDIRILMIŞ XARİCİ SİYASƏT

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı olaraq inkişaf edir, güclənir, regionda güc mərkəzinə çevrilir. Qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi altında regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edir.

Cənubi Qafqazın lider ölkəsi olaraq Azərbaycan həm Avropa, həm də Asiya ölkələri ilə balanslaşdırılmış xarici siyasət həyata keçirir, qarşılıqlı əməkdaşlıq münasibətləri qurur, iqtisadi və siyasi əlaqələrini möhkəmləndirir və bununla da geosiyasi mövqeyini gücləndirir. Azərbaycanın Avropa ilə yanaşı, Yaxın Şərq diplomatiyası da çoxşaxəli və tarazlaşdırılmış xarici siyasət prinsiplərinə əsaslanır.

Vurğulamaq yerinə düşər ki, müasir dünyada Azərbaycan qlobal məsələlərin həllində iştirak edən dövlətə çevrilib. Təkcə bu ilin, oktyabr ayı ərzində Azərbaycan Prezidenti İlham Əliyev fərqli coğrafiyada keçirilən samttlərin iştirakçısı olub. 1-2 oktyabr tarixlərində Kopenhagendə Avropa Siyasi Birliyinin sammitində, 6-7 oktyabr tarixlərində , Qəbələdə Türk Dövlətləri Təşkilatının sammitində, 9-10 oktyabr tarixlərində isə, Düşənbədə MDB Sammitində iştirak edib. Beynəlxalq təşkilatların fəal üzvünə çevrilən Azərbaycan müxtəlif beynəlxalq platformalarda yalnız üzləşdiyimiz problemlərin deyil, eyni zamanda, qlobal miqyaslı problemlərin həllinə töhfə verir. Azərbaycanın səyləri və təşəbbüsləri dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Bu siyasət Azərbaycanın coğrafi mövqeyindən, enerji resurslarından və regional təhlükəsizlik maraqlarından qaynaqlanır. Misirdə keçirilən sammitdə iştirak Azərbaycanın həm İslam dünyası, həm də Qərb siyasi mərkəzləri ilə əlaqələrinin qarşılıqlı etimada əsaslanan yeni mərhələyə qədəm qoyduğunu da göstərir.

Azərbaycan beynəlxalq təşkilatlarda etibarlı, nüfuzlu və edalətli bir ölkədir. Artıq Azərbaycan dəfələrlə müxtəlif beynəlxalq təşkilatlarda istər üzv ölkə kimi, istərsə də bu beynəlxalq təşkilatlara sədrlik etdiyi müddətdə həm ölkəmizə, həm də bu təşkilatlara böyük nüfuz qazandırmışdır. Sözsüz ki, bu zəngin təcrübəyə və mükəmməl diplomatik birliyə və idarəetmə məharətinə malik olan möhtərəm Prezidentimiz İlham

Əliyevin fəaliyyətinə görədir. Ötən illər ərzində müxtəlif beynəlxalq təşkilatlarda dəfələrlə sədrlik etdiyi müddətdə Prezident İlham Əliyev unikal və zəruri əhəmiyyətə malik təşəbbüsləri ilə ölkəmizə beynəlxalq aləmdə böyük nüfuz qazandırmışdır. 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Qoşulmama Hərəkatı üzvlərinin legitim maraqlarını, eyni zamanda beynəlxalq hüquq və ədaləti müdafiə edir. Dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə böyük məsuliyyətlə yanaşmış və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərmişdi. Azərbaycan Prezidenti 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. Zirvə Toplantısının praktiki nəticəsi olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradılıb.

DÜNYANIN GƏLƏCƏK TALEYİNİN HƏLL OLUNACAĞI SAMMİT

Dünəndən başlayaraq keçirilən bu beynəlxalq tədbir deməyə əsas verir ki, Misirdə yalnız Yaxın Şərqin deyil, dünyanın gələcək taleyinin həll olunacağı samit keçirilir. Şarm-əl-Şeyxdə Qəzza bölgəsinin gələcəyi ilə əlaqədar təşkil olunan sammitdə qlobal siyasətdə söz sahibi olan dövlətlərin başçıları iştirak ediblər.

ABŞ Prezidenti Donald Trampın təşəbbüsü və Misir prezidenti Abdel Fəttah əs- Sisinin təşkilatçılığı ilə keçirilən yüksəksəviyyəli siyasi tədbirdə Fransa prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Kir Starmer, İtaliya Nazirlər Şurasının Sədri Corcia Meloni, İspaniyanın Baş naziri Pedro Sançes, həmçinin Yaponiya, Hindistan, Kanada, Yunanıstan, Bəhreyn, Əl-Küveytin, Qətər və İordaniyanın xarici işlər nazirləri, eləcə də BMT və Avropa İttifaqının təmsilçiləri iştirak ediblər. Misir və ABŞ prezidentlərinin həmsədrlik etdikləri sammitə Azərbaycan da daxil olmaqla 20-dən çox ölkənin liderinin qatılması tədbirin əhəmiyyətini bir daha nümayiş etdirir. Son onillikdə Yaxın Şərqdə baş verən geosiyasi proseslər Suriya, İraq, Liviya kimi dövlətlərdə vətəndaş müharibələrinin başlamasına, hakimiyyətlərin zorla devrilməsinə və bunların nəticəsində milyonlarla insanın qaçqın düşməsinə səbəb olub. İsrail ilə Fələstin arasındakı münaqişə artıq dünyanı narahat edən bir vəziyyətə çatıb ki, bunu da ABŞ Prezidenti Donald Tramp həll edərək, regionda sülhə nail olmaq qərarına gəlib.

SÜLH, ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI İNKİŞAFA YÖNƏLMİŞ SİYASƏT

Azərbaycanın 44 günlik Vətən müharibəsində Zəfər qazanması rəsmi Bakının hərbi əməliyyatlar apararaq yalnız işğal altında olan torpaqlarını geri qaytarmasını deyil, ədalətin bərpası üçün həyata keçirdiyi tədbirlərin zəruriliyini göstərdi. Bu baxımdan Prezident İlham Əliyevin Prezident D.Tramp tərəfindən Yaxın Şərq Sülh Sammitinə dəvət alması təsadüfi xarakter daşımır. Azərbaycan Suriyaya yardım məqsədilə onun enerji təminatına dəstək verərək, bu ölkəyə təbii qaz ixrac etməsi faktı Prezident İlham Əliyevin humanist baxışlarını göstərməklə yanaşı, sülhə doğru addım atan siyasi liderlik qabiliyyətində olduğunu da nümayiş etdirdi. Bütün bunlar Azərbaycan Prezidentinin dünya liderləri arasında sülhsevər dövlət başçısı kimi nüfuzunu möhkəmləndirir.

Azərbaycan özünün praqmatik siyasi xətti və iqtisadi inkişafı ilə dünya birliyində layiqli yerini tutub və regionda sülh, əməkdaşlıq və qarşılıqlı inkişafa yönəlmiş siyasət yürüdür.

Nəzakət ƏLƏDDİNQIZI

Vətən müharibəsinin 18-ci günü

***44** günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyinin təntənəsidir. Bu möhtəşəm Zəfər nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olundu və 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinə son qoyuldu. Azərbaycan uzun illər bu münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərsə də, Ermənistanın ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi kimi bəyanatları danışıqlar prosesinə ciddi zərbə vurdu. Ermənistanın qeyri-konstruktiv, təxribatçı mövqeyi onun kapitulyasiyası ilə nəticələndi.*

Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini bütün dünyaya nümayiş etdirdi.

Müharibənin 18-ci günü. Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 14-ü saat 12:00-dək 43 mülki şəxs həlak olmuşdu. 214 nəfər isə xəsarət almış, 1505 ev, 66 çoxmənzilli yaşayış binası və 277 mülki obyekt yararsız vəziyyətə düşmüşdü. Buna baxmayaraq, hər gün qələbə sevincini yaşayırdıq. "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazırdı. Həmin gün 14 oktyabr tarixində 30 ilə yaxın Ermənistanın işğalı altında olan əzəli torpaqlarımız Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad olundu və tariximizdə yeni səhifə yazıldı.

2020-ci ilin 13 oktyabr tarixində Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" telekanalına müsahibəsində "Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi və digər təhqirləri, həqarəti Azərbaycan xalqını haqlı olaraq hiddətləndirdi. Biz onun bu hərəkətlərinin heyfini bu gün döyüş meydanında alırıq, əvəzini çıxırıq. Azərbaycan əsgəri döyüş meydanında göstərir ki, kim haqlıdır, kim haqsızdır. Biz gücümüzü, xalqımızın iradəsini döyüş meydanında göstəririk. Paşinyanın digər təxribatları da cavabsız qalmır və qalmayacaq. Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır", - deyə bildirmişdir: "Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimlərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq. Mən demişdim ki, Azərbaycan xalqının ləyaqəti ilə oynamasın, diqqətli olsun, ehtiyatlı olsun. O zənn edirdi ki, dünya ermәniliyi onu müdafiə edəcək, o zənn edirdi ki, böyük dövlətlər gəlib onun yerinə vuruşacaq, bu gün də bunu istəyir".

"BAYRAĞIMIZI QALDIRIRIQ, TORPAQLARIMIZI AZAD EDİRİK VƏ SONA QƏDƏR BU YOLU GEDƏCƏYİK!"

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında uduzduğunu aydın dərk etdiyindən beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmir və Azərbaycan Ordusu öz torpaqlarının azad olunması məqsədi ilə müharibəsini davam etdirirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibəsi zamanı Ona ünvanlanan "Cənab Prezident, hazırda Ermənistan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutur. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirir. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alır. Bundan məqsəd panika, xaos və qorxu yaratmaqdırmı? Siz hazırda Azərbaycan xalqının bu psixologiyasını necə görürsünüz?" sualını belə cavablandırmışdı: "Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir. Dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə, bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil.

Bu gün səhər mənə verilən məlumata görə, 100-dən çox mərmi səhər saat 7-dən indi saat 10-un yarısıdır, 2 saat yarım ərzində mindən çox mərmi Tərtər şəhərinə düşüb. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin, Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir. Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

AZƏRBAYCAN QALİB XALQ OLDUĞUNU BƏYAN ETDİ

Vətən müharibəsi dövründə də davam edən Ermənistanın növbəti cinayətləri, mülki əhaliyə qarşı edilən terrorlar çirkin siyasətin məntiqi idi. Belə ki, 2020-ci ilin oktyabrın 10-da Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirləri humanitar atəşkəs elan edilməsi haqqında bəyanat qəbul etmişdi. Lakin Ermənistan Respublikası nəinki buna əməl etməyib, əksinə, oktyabrın 11-də onu ciddi şəkildə pozaraq öz ərazisindən Gəncə və digər şəhərlərimizi "SKAD" tipli raket kompleksindən atəşə tutmuşdu. Bütövlükdə Ermənistanın bu addımı müharibə dövründə mülki əhalinin müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyasının və bu cür silahların mülki əhaliyə qarşı istifadəsini qadağan edən beynəlxalq sazişlərin müddəalarına ziddir. Ermənistanın bu cür silahlarla təchiz edənlər də həmin silahların qanunsuz istifadəsinə görə məsuliyyət daşıyırlar.

Oktyabrın 14-də səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulmuşdu. Ermənistanın humanitar atəşkəsi pozmasına baxmayaraq, rəşadətli Azərbaycan Ordusunun hər gün yeni kəndləri və şəhərləri işğaldan azad etməsi bizi Zəfər tariximizə yaxınlaşırdı. Azərbaycan Qalib xalq olduğunu bəyan etdi,

Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanlığından qaynaqlanırdı.Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: "Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir". Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı".

44 GÜNÜN QƏLƏBƏ SORAQLARI

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

Təbii ki, bu uğulu yolda necə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrənilir. "Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik", - deyən dövlət başçısı bildirib ki, şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq: "Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək"

Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti və "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur", - deməsi böyük bir Zəfər tariximizə çevrildi. Bu tarix bu günün və gələcəyin nəsillərinə iftixar yaşadan bir gün oldu.

Zümrüd BAYRAMOVA

Düşənbə görüşü: münasibətlərdə yeni mərhələ

Prezident İlham Əliyev: "Bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı qarşılıqlı münasibətlərin yüksələn bir xətlə inkişafda olduğunu göstərir. "Bugünkü iclasda humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunmaq istərdim. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkürümü bildirirəm. Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı İli"nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi. Tədbirin qonaqları Laçının Ermənistanın 30 illik işğalından azad ediləndən sonra sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular. Tamamilə dağıdılmış şəhər bir neçə il ərzində ən gözəl və yaşayış üçün rahat şəhərlərdən birinə çevrilib", - deyə Azərbaycan Prezidenti çıxışında bildirib.

Azərbaycanın işğaldan azad olunan dilbər guşələrindən olan Şərqi Zəngəzur rayonunun Laçın şəhəri MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilmişdi. Bu, hər bir azərbaycanlıda məmnunluq və fəxarət hissi oyadır. Laçın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş Azərbaycan şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılıb. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı İlham Əliyevin nəzarəti altındadır. Azad Laçına Azərbaycan Prezidentinin səfərləri zamanı dövlət başçısı təməlqoyma və açılış mərasimlərində iştirak edir, aparılan işlərlə yerindəcə tanış olur, tapşırıq və tövsiyələrini verir. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Bildiyimiz kimi, işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə Böyük Qayıdışın ilk karvanı yola düşmüşdü. Böyük Qayıdışın ilk sorağı Ağalı kəndinə əhalinin köçürülməsi oldu. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi əsasən, daha ağır şəraitdə yaşayanlardır.

Çox keçmədi ki, köç karvanları Laçına da yol aldılar. Bu gün Laçınımız abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli sakinlərin bu torpaqda rahat, firavan yaşamasına istiqamətlənib.

"BU QƏBİLDƏN TƏDBİRLƏR MDB MƏKANINDA VƏ ONUN HÜDUDLARINDAN KƏNARDA DOSTLUĞU, ƏMƏKDAŞLIĞI MÖHKƏMLƏNDİRİR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında III MDB Oyunlarına da toxunaraq bildirib ki, birliyin həyatında daha bir mühüm hadisə sentyabrın 28-dən oktyabrın 8-dək qədim Gəncə şəhərində - XII əsrin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənində keçirilən III MDB Oyunları oldu: "Gəncə ilə yanaşı, Azərbaycanın daha altı şəhərində - Qəbələ, Göygöl, Yevlax, Mingəçevir, Xankəndi, Şəkidə 13 ölkədən – həm MDB üzvləri olan, həm də qonaq ölkələrdən 1600-dən çox idmançı qəbul edildi. Bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir".

Dünyanın idman arenasında, artıq özünə layiqli yer tutan Azərbaycan beynəlxalq yarışlara ev sahibliyi edir. Buna son on bir ildə Azərbaycanın dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilməsi imkan verib. Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə bundan qaynaqlanırdı. İlk Oyunların Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı-2015" ilk Avropa oyunlarının qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə, yüksək tolerantlıq mühitinə və qonaqpərvərliyə malik olan Azərbaycanda keçirilməsinin əhəmiyyəti danılmazdır. Belə oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətli idi. Dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda dünyanın idman ictimaiyyətinin diqqətini çəkən ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının Bakı şəhərində təşkili ölkəmizin iqtisadi gücünü də ortaya qoymuş olur.

Azərbaycanda III MDB Oyunlarının keçirilməsi Gəncə şəhərini idman paytaxtına çevirdi. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində təşkil olundu.

"SİZ ŞƏXSƏN İSTİNTAQIN GEDİŞİNƏ NƏZARƏT EDİRSİNİZ VƏ BİZİM HEÇ BİR ŞÜBHƏMİZ OLMAYIB Kİ, O, BÜTÜN MƏSƏLƏLƏRİ OBYEKTİV ARAŞDIRACAQ"

Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daim diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır.

Danışıqların böyük hissəsi son illərdə Rusiya-Azərbaycan münasibətlərinin ən ciddi sınağına çevrilmiş AZAL təyyarəsinin qəzasının araşdırılmasına həsr olunub. V.Putin faciədən sonra Prezident İlham Əliyevin irəli sürdüyü tələblərin yerinə yetirildiyini faktiki olaraq təsdiqləmiş oldu. Putin faciənin Rusiya səmasında baş verdiyinə görə üzrxahlıq etdiyinin xatırtlatdı, bu məsələdə ölkəsinin məsuliyyət daşıdığını etiraf etdi. Eyni zamanda, zərərçəkən ailələrə kompensasiya ödəniləcəyini və günahkarların cəzalandırılacağını bildirdi. "Azərbaycan Hava Yollarının təyyarəsinin keçən ilin dekabrında qəzaya uğraması ilə bağlı faciə haqqında ətraflı informasiyaya görə xüsusilə təşəkkür edirəm. Biz Sizinlə dərhal təmasa keçdik. Xatırlayırsınızsa, bu faciəli gündə mən Sankt-Peterburqda görüşə uçurdum və mənə məlumat verildikdə təyyarədən dərhal Sizə zəng etdim və bir-birimizə başsağlığı verdik. Həmçinin Sizdən MDB-nin qeyri-rəsmi sammitində iştirak edən həmkarlarımıza da obyektiv səbəblərdən bu tədbirdə iştirak edə bilməyəcəyimi çatdırmağınızı xahiş etdim. Eyni zamanda, bu vəziyyəti nəzarətdə saxladığınıza görə Sizə təşəkkür etmək istərdim. Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq, həmçinin komandalarımızın üzvləri daim təmasdadırlar. Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq", - deyə Azərbaycan Prezidenti bildirib.

G rüşdə ticari-iqtisadi və digər sahələrə də toxunulub.

Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır. "Bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb. Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir", - deyən Prezident bildirib ki, bu yaxınlarda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası keçirilib, həmsədrlər təkcə iqtisadi-ticari deyil, bütün məsələlərin geniş spektrini ətraflı müzakirə ediblər.

Düşənbədə Prezident İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında keçirilən görüş Bakı-Moskva münasibətlərində yeni mərhələnin başlanğıcı hesab olunur. Görüşdə müzakirə olunan məsələlər və liderlərin çıxışlarında diqqətçəkən məqamlar bunu deməyə əsas verir.

Zümrüd BAYRAMOVA

Sevgi və mərhəmətin simvolu - Sevil xanım Əliyeva

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Sevil xanım Əliyeva "Şərəf" ordeni ilə təltif edilib

Bu gün biz- "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası ailəsi olaraq dəyərli bir insan, böyük qəlbin və yüksək insani keyfiyyətlərin daşıyıcısı, Assosiasiyamızın fəxri prezidenti Sevil Əliyeva haqqında danışmaqdan qürur duyuruq. Sevil xanımın illər boyu valideyn himayəsindən məhrum olmuş, qayğıya ehtiyacı olan uşaqlara, gənclərə və ailəsiz böyüyən körpələrə göstərdiyi diqqət və şəfqət hər birimizin qəlbində dərin hörmət və minnətdarlıq hissi oyadır. Onun fəaliyyəti təkcə bir vəzifənin icrası deyil, əslində böyük missiyanın- sevgi, mərhəmət və humanizmin təcəssümüdür.

1999-cu ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə əsası qoyulan "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyi beynəlxalq təşkilatın üzvü kimi fəaliyyətə başlamışdır. Elə ilk gündən etibarən təşkilatımızın formalaşması və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində əsas rol oynayan şəxs Sevil xanım Əliyeva olmuşdur. Sevil xanımın rəhbərliyi altında Assosiasiya təkcə bir təşkilat deyil, yüzlərlə uşağın həyatına işıq saçan, onları sevgi və qayğı ilə əhatə edən bir ailəyə çevrildi. Sevil xanım Əliyeva həmin ali amalı bu gün də sevgi ilə yaşadır, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların həyatına ailə istiliyi, sevinc və ümid bəxş etməklə, cəmiyyətimizə dəyərli bir miras qoyur.

Sevil xanım Əliyevanın çoxşaxəli fəaliyyəti yalnız sosial sahə ilə məhdudlaşmır. Onun musiqi sənətinə verdiyi töhfələr, yaratdığı dərin mənalı əsərlər və qəlblərə nüfuz edən melodiyalar bu gün də dinləyicilərin yaddaşında silinməz izlər buraxır. Hər bir musiqi nümunəsində insanın qəlbinə toxunan bir incəlik, duyğulara yön verən bir ahəng hiss olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 oktyabr 2025-ci il tarixli Sərəncam ilə Sevil Əliyevanın "Şərəf" ordeni ilə təltif olunması onun cəmiyyətimiz üçün nə qədər dəyərli, nüfuzlu və örnək bir şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Bu mükafat onun sənətə, insanlığa və milli-mənəvi dəyərlərə olan sədaqətinin təqdiridir.

Bu əlamətdar gündə Sevil xanım Əliyevanı yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və insanlara sevinc bəxş edən fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq. Sizinlə qürur duyuruq, Sevil xanım!

"SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyinin İdarə Heyəti

İndi Qarabağ azaddır. 2020-ci ildə 44 günlük müharibə və 2023-cü ilin 20 sentyabrında birgünlük anti-terror əməliyyatı ilə 30 il işğal altında qalan torpaqlarımızı geri qaytardıq. Dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin uzun illər torpaqlarımızın azad olunması ilə bağlı həyata keçirdiyi siyasət və müzəffər ordumuzun rəşadəti nəticəsində düşmən qovuldu, ərazi bütövlüyümüz təmin edildi. Artıq 5 ildir ki, əzəli və əbədi yurd yerlərimizdə geniş quruculuq işlərinə başlanılıb. Soydaşlarımız öz ata-baba yurdlarına qayıdır, işğaldan azad edilmiş torpaqların hər birində bərpa işləri görülür ki, 30 il məcburi köçkün kimi yaşayan soydaşlarımızın hamısı doğma evlərinə qayıda bilsin.

30 il: dağıdılan yurdlar, sağalmayan yaralar...

Ermənilərin xalqımıza vurduğu zərərin misli yoxdur

Dərdli danışqan olar, deyirlər. 30 il erməni işğalı altında qalan Qarabağdan, oradakı yurd yerlərimizin ermənilər tərəfindən viran edilməsindən söhbət açmaq istəyirəm yenə. Bəli, bu, elə bir dərddir ki, dünya durduqca danışsaq da, yenə sinəmizdəki yaralara məlhəm ola bilməz. Bu elə yaradır ki, yüz illər üstünə məlhəm qoysaq da, sağalması mümkün deyil. Bütün yaralardan fərqli olaraq, qoy bu yara heç sağalmasın da. Çünki sağalarsa, ermənilərin Qarabağa etdiyi zülm, bu xalqa zaman-zaman verdiyi əzab-əziyyət unudular. Qoy bu yara sağalmasın. Sağalmasın ki, ermənilərin necə dəhşətli bir düşmən olduğu nəsilbənəsil yaşadılsın. Dağıdılan minlərlə tarixi, mədəni abidələr, obyektlər, muzeylər, məktəblər, kitabxanalar, yaşayış binaları, evlər yüz illərlə yaradılmışdı, 30 ilin qurbanı oldu. Soydaşlarımız bu ata-baba yurdlarından silahın ucunda zorla çıxarıldı. İllərlə əlləri ilə kərpic-kərpic qurduqları evlərini qoyub çıxmalı oldular.

Ermənilərin bu xalqa vurduğu həm maddi, həm mənəvi zərərin misli yoxdur. Hansı milyonlar bu itirdiklərimizi qaytara bilər? Hansı milyonlar bizə balalarımızı, itirdiyimiz 30 ili qaytara bilər? Hansı milyonlar köçkünlükdə yurd həsrəti ilə dünyasını dəyişən insanların ruhuna təsəlli ola bilər?

Yurdun dağılması elə bir dərddir ki, heç bir qüvvə insanın içindən bu ağrını-acını silib apara bilməz. Buna görə də yurdumuzu dağıdan, talayan, satıb-sovan, vuran edən, sərvətlərimizi mənimsəyən, daşıyıb dünya bazarlarında satan ermənilər bizim əbədi düşmənimizdir.

Bir ev bir ömürdür

Bəli, bir ev bir ömürdür. Ev qurmaq, bağ salmaq hər bir azərbaycanlı ailəsinə xas olan keyfiyyətlərdəndir. Əsrlərdən gələn bu keyfiyyət artıq ailə dəyərlərimizə, adətlərimizə çevrilmişdir. Bunu ata-babalarımızdan, nənələrimizdən, analarımızdan elə bir tərbiyə olaraq almışıq ki, həddi-buluğa çatan kimi özümüz üçün ev qurmaq, həyət, bağ salmaq qarşımızda duran ən vacib vəzifə olur. Bunun üçün illərlə çalışırıq. Gənclik çağımızdan başlayaraq ev qururuq. Birazdan ailə böyüyür, dünyaya uşaqlar gəlir. Onların böyüməsi ilə paralel qurduğumuz evlərimizin başa gəlməsi ailədəki qayğılar səbəbindən gecikir. Bir ay evin bir hissəsini tikirik, gələn ay bir hissəsini. Baxırsan ki, artıq evlilikdən 10 ilə yaxın bir vaxt keçir, hələ də ev tamamilə hazır deyil.

Beləliklə, hər ay bir kərpic, hər il bir otaq, illər ötür, evin qurulması da sanki sənինlə bir ömrə sığmağa başlayır. Ev bitir, sonra başlayırsan həyəti qurmağa. Bu il bir işini görürsən, gələn il bir işini. Həyəti həyət halına salanadək baxırsan ki, neçə-neçə illər keçib gedib.

Bağ salmaq isə bizdə belədir ki, hələ torpaq alıb ev tikməyi nəzərdə tutduğun andan artıq evin tikiləcəyi yeri müəyyən edib, kənarlarda ağac əkməyə başlayırsan ki, böyüsün kölgəsində oturasan, meyvəsindən yeyəsən. Bağ işi də çətin işdir. Çünki daim diqqətdə olmalıdır. Quruyanlar kəsilməli, yerinə yeni tinglər əkilməlidir ki, el içində deyildiyi kimi, vaxta gəlib yetirə bilsin.

Bir sözlə, evimiz, həyətimiz, bağ-bağçamız necə deyərlər, dişimizlə-dırnağımızla qurub-yaratdıqlarımızdır. Ona görə də əzizdir, doğmadır. Çünki zəhmət sərf edirik, gecəmizi gündüzümüzə qatıb bir evin sahibi olmaq üçün çalışırıq. Belə isə 1990-ci ildən başlayaraq Xocavənd, Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Ağdam və digər rayonlarımızdan evlərindən zorla çıxarılan insanları anlamaq o qədər asandır ki... Onlar evlərindən çıxarılarkən hansı hissləri yaşayıblar, əlləri ilə min bir əziyyətlə qurduqları evlərini qoyub çıxarkən hansı vəziyyətə düşüblər? Bütün bunları anlamaq o qədər asandır ki...

Onların zorla, silah burnunda evlərindən çıxarıldıqlarını, evlərini, həyətlərini, bağ-bağçalarını, mal-mülklərini qoyub hara gedəcəklərini təxmin belə edə bilmədiklərini düşündükcə, adamın ürəyi parça-parça olur. Bir ömür çalış, ev qur, həyət qur, bağ-bağça sal, gəlib səni zorla çıxarıb sahiblənsinlər. Bu, çox böyük dərddir, sağalmayan yaradır. Sonra biləndə ki, düşmən mal-mülkünü talayandan sonra evinə, həyətinə, bağına od vurub yandırıb, gəl, ürək, buna göz görüm, necə dözürsən.

Beləliklə də ermənilərin azərbaycanlılara vurduğu maddi ziyanın misli yoxdur. Maddi ziyandan yaranan mənəvi ziyanın da, eynilə, misli yoxdur. Evin yıxılmasından, dağılmasından böyük dərd ola bilməz. Düşmənin soydaşlarımıza qarşı törətdiyi bu cinayətləri tarix bağışlamayacaq. Eləcə də yurdu boş qalan, dağıdılan insanlar bağışlamayacaq. Minlərlə insanın ürəyindəki yara isə heç vaxt sağalmayacaq.

Yuxularımızda gəzdiyimiz evlər, həyətlər, bağçalar...

Bu gün Qarabağ və Şərqi Zəngəzurun işğal olunmuş torpaqları azad edilib, Böyük Zəfər qazanmışıq. Lakin insanların xatirələri olduğu kimi qalır və qalacaq da. Çünki onların itkisi böyük idi. Bu xatirələr yaşansın. Yaşansın ki, olanlar da unudulmasın.

Laçın sakini Həsən: Bir gecə yuxumda Laçındaydım. Evimizin yolunu tapmağa çalışırdım. Hər tərəfi ot basmışdı, bütün cığırlar, yollar itmişdi. Ha axtarırdım, lakin tapa bilmirdim. Ətraf xarabalığa bənzəyirdi. Dam örtüyü olmayan, qapı-pəncərəsi sökülüb götürülmüş, od vurub yandırılan evlər xarabalıqdan başqa heç nəyi ifadə etmirdi.

Axı mən Laçını heç vaxt belə görməmişdim. Nədir günahı görəsən bu yurdun ki, bu günə salınıb? Cansız, dili-ağızı olmayan evlər, həyətlər, ağaclar nə üçün sökülüb, viran edilib, kəsilib, doğranılıb?

Yuxumda ha gəzdim, gəzdim, evimizi tapa bilmədim. Çünki ətraf tamamilə bir-birinə bənzəyirdi. Fərqli heç nə yox idi ki, onunla nəyi isə təxmin edə biləsən.

Ağdam sakini Xuraman xala: Bir gecə yuxumda həyətimizdə idim. Bir yurd bu günə necə düşə bilər, İlahi? Əlimlə nəyi hara qoymuşdumsa, hamısı bugünkü kimi yadımda idi. Hara, hansı tərəfə baxdımsa xarabalıqdan, uçqunlardan başqa heç nə görmədim. Amma çox yaxşı xatırlayırdım, ərik ağacının altındakı taxtadan düzəldiyimiz masa və oturacaqları. Alça ağacının altına böyük bir daş qoymuşdum, üstünə duz səpirdim ki, mal-heyvan çöldən gələndə yalasın. Baxdım ki, o daş yerindədir. Bir anda həyət mal-heyvanla, qoyun-quzu ilə doldu. O günlər canlandı gözlərim önündə: sağdığım vedrə-vedrə süd, hazırladığım pendir, şor, kərə. Bu ağacın altında süfrə açdım, əllərimlə hazırladığım nemətləri süfrəyə düzdüm bir anın içərisində. Uşaqların, nəvələrin səsi ətrafı bürüdü. Gözlərimi yummuşdum, o anları olduğu kimi xatırlayırdım...

Birdən gözlərimi açdım. Sən demə yuxudan da oyanıb gözlərimi açmışam. Gözlərim ağappaq tavana zillənmişdi. Gözlərimdən yaş axdıqca, səhərdən bəri yuxuda yurdumda olduğumu anladım. Kaş ki, oyanmazdım, dedim...

Kəlbəcər sakini İbad əmi: Bir gecə yuxumda Kəlbəcərdəydim. Küçələri dolaşırdım. Evimizi axtarıb tapmağa çalışırdım. Hər yer daş-kəsək idi. Yıxıla-dura bir təhər evimizə tərəf gedən yolu təxmin edə bildim. Uçulmuş evimizə çatanda ürəyimdən elə bir sızıltı keçdi ki, sanki iki əl dayanmadan sıxırdı. Gözlərim önündə uçuq, yandırılmış qapqara divarlar, evimizin qırılıb dağıdılmış, sındırılmış əşyalarından qalan parçalar ətrafa səpələnmişdi.

Ardı Səh. 6

Əvvəli-Səh-5

Zalım düşmən necə də qəddarlıqla dağıtmışdı evimizi. Nə qapısı, nə pəncərələrindən bircəsi də qalmamışdı. Bircə "əl damı" dediyimiz yerin köhnə taxta qapısı, üzərindəki sim yerində idi. O simlə axşamlar qapını bağlayırdıq. O qapı atamdanqalma idi. Taxtaları yan-yana bir-birinə mıxlamaqla düzəltmişdi. Yaxınlaşıb qapını qucaqlayıb o qədər öpdüm ki... Sanki atamı qucaqlamışam kimi hiss etdim. Axı o qapıda onun əllərinin izi, alnının təri hələ də qalmaqda idi...

Füzuli sakini Narınc: Bu gecə yuxumda Füzulidə-evimizdəydim. Oradakı xoş bir yay günündə idim. Hər yer necə də səliqəli idi. Hər şey öz yerində... Düşündüm ki, bəs deyirdilər, ermənilər evimizi tar-mar edib, yandırıb. Burada axı heç nəyə əl dəyməyib.

Atam, anam, babam, nənəm, bacı-qardaşım-hamımız evdə idik. Masa ətrafında əyləşib çay içirdik. Onların səsləri eyni o səs, söhbətləri eynilə o söhbətlər idi. Necə də şən idik. Bir azdan nənəm keçib divanda əyləşdi. Mən də yanına getdim. Saçımı sığallamağa başladı. Bir neçə gündən sonra Bakıya gəlməli idim. Mənə öz nəsihət və tövsiyələrini verdi. Ağıllı ol, mənim balam, dedi.

Oyananda elə bir şok keçirdim ki, bunu ifadə etmək olduqca çətindir. Füzulu harada idi, evimiz, həyətimiz, babam, nənəm harada idilər. Amma inanın, mən nənəmin əllərini oyanandan sonra da saçlarımda hiss edirdim.

Lakin bir azdan tamamilə anladım ki, bütün bunlar yuxu imiş. İndi nə bizim ev var, nə də nənə-babam. Evimiz ermənilər tərəfindən xarabalığa çevrilib. Bunları eşidən babanənəm isə dünyalarını köçkünlükdə çoxdan dəyişiblər...

O yurdlara qayıdırıq

Dağıdılan tək yurdlarımız deyil, minlərlə tarixi-mədəniyyət abidələrimiz, muzey, məktəb, xəstəxanalar, minlərlə müxtəlif obyektlərin hər birinin taleyi soydaşlarımızın evinin, həyətinin bağının taleyi ilə eynidir. Onlardan əsər-əlamət belə qalmayıb. Görün, erməni adlı qonşuluqdan kənar olanlar dövlətimizə, ölkəmizə nə qədər maddi ziyan vurub. Onların ziyanı tək bununla bitmir. Birinci və İkinci Vətən müharibələrində 25-30 minə yaxın həyatını itirən insan, minlərlə qazi, itkinimizin hər birinin acı taleyi ermənilər tərəfindən bizə vurulan mənəvi zərərdir. Hələ üstəlik bu müharibələrdən aldığı travmalarla böyüyən uşaqlarımızın, oğul yolu gözləyib, "öldü", xəbərini alan ata-analarımızın, həyat yoldaşını itirən qadınlarımızın yaşadıqlarını düşünəndə, deyirsən ki, bəli, yağı düşmənin xalqımıza vurduğu zərərin misli yoxdur.

Biz o yurdlara qayıdırıq. Çünki 2020-ci ilin 44 günlük savaşında Ali Baş Komandanımız, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə milli ordumuz o yurdların hər birini yağı düşməndən azad edib. Onlar birdəfəlik o torpaqladan qovulub.

İndi Qarabağ dövlətimizin diqqət və qayğısı ilə yenidən qurulur, bərpa olunur. Artıq yüzlərlə soydaşımız Böyük Qayıdışla yurdlarına qayıdıblar. Böyük Qayıdış yaxın gələcəkdə digər yurd yerlərimizə də olacaq.

Qarabağ illər sonra əvvəlki növrağına qayıdacaq, yenə gözəlliklər diyarına çevriləcək. Lakin insanların yaraları sağalmaz olaraq qalacaq. Bütün bunları gələcək nəsillərimiz üçün yazıb saxlamaq, onlara danışmaq, yaddaşlarına hopdurmaq hər birimizin vətəndaşlıq borcudur. Çünki bir yurdun yurd olması üçün əsrlər ötür. Ermənilər bizim əsrlərlə yurd olan torpaqlarımızda daşı daş üstündə qoymadılar. Yurdumuzu, evimizi, şəhərimizi, rayonumuzu, kəndimizi dağıtdılar. Abidələrimizi yerlə yeksan etdilər. Bütün bunlar unudula bilərmi? Minlərlə insanın 30 ildə yurd deyə-deyə dünyasını dəyişməsini, yurd həsrəti ilə qovrulmasını, əzizlərinin qəbrini ziyarət edə bilməyən soydaşlarımızın, 30 il məcburi köçkünlük yaşayan vətəndaşlarımızın yaşadıqlarını unutmaq olarmı?

Biz döyüş meydanında düşmənin layiqli cavabını vermişik. Qisasımızı almışıq. Lakin 1990-cı ildən 2020-ci ilə qədər bir qərinəyədək olan zaman kəsiyi tariximizin elə bir səhifəsidir, o səhifə elə bir dəsti-xətlə yazılıb ki, əsrlər sonra da olduğu kimi qalacaqdır. Onu unutmağa haqqımız yoxdur. Çünki onu unutmaqdan böyük günah ola bilməz xalqımız üçün...

Mətanət Məmmədova

EKSPERT AÇIQLADI

"Yalnız öhdəlik mexanizmi ilə məsələni həll etmək mümkün deyil"

"Xaricdə təhsil alan tələbələrin geri dönüş motivasiyası məsələsi təkcə fərdi qərar deyil, dövlətin insan kapitalı strategiyasının mühüm hissəsidir. Azərbaycan son illərdə "Xaricdə təhsil üzrə dövlət proqramı (2022–2026)" vasitəsilə minlərlə gəncə dünya universitetlərində təhsil almaq imkanı yaradıb. Lakin bu proqramın real məqsədi yalnız bilik qazanmaq deyil, həmin biliyin ölkəyə geri gətirilməsidir. Təhlil göstərir ki, geri dönmənin motivasiyası həm sosial, həm iqtisadi, həm də institusional amillərlə bağlıdır və bu istiqamətdə dövlət səviyyəsində mühüm addımlar atılır". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

O bildirib ki, qanunvericilik baxımından bu məsələ artıq normativ çərçivəyə salınıb: "Nazirlər Kabinetinin 25 noyabr 2021-ci il tarixli, 348 nömrəli qərarı ilə təsdiqlənmiş "Xaricdə təhsil üzrə yeni dövlət proqramı"na əsasən, dövlət hesabına xaricdə təhsil alan şəxs ölkəyə qayıdaraq ən azı 5 il müddətinə ixtisası üzrə fəaliyyət göstərməlidir. Bu müddəa həm qanuni öhdəlik, həm də dövlətin kadr siyasətinin əsas tənzimləyici mexanizmidir. Burada məqsəd yalnız inzibati məcburiyyət deyil, eyni zamanda cəmiyyətə fayda prinsipinin təminidir: dövlət vəsaiti ilə formalaşan insan kapitalı yenidən dövlətə xidmət etməlidir.

Ancaq yalnız öhdəlik mexanizmi ilə bu məsələni həll etmək mümkün deyil. Əgər daxildə müvafiq mühit, ədalətli əmək bazarı və inkişaf imkanları olmasa, məcburiyyətlər uzunmüddətli nəticə verməyəcək. Təhlillər göstərir ki, geri dönüş motivasiyasını gücləndirən əsas amil imkan və şəraitin keyfiyyətidir. Xaricdə təhsil almış gənc qayıtdıqda, onun bilik və bacarıqları ilə uyğun gələn iş yerlərinin mövcudluğu, əməkhaqqı səviyyəsi, elmi-tədqiqat imkanları, qərarvermə proseslərinə çıxışı real motivasiya yaradır. Əmək Məcəlləsinə və "Dövlət qulluğu haqqında" Qanuna edilən son dəyişikliklər, gənc mütəxəssislərin dövlət qurumlarında ixtisasına uyğun vakansiyalara cəlb olunmasını asanlaşdırmaq məqsədi daşıyır. Bu da əslində, beynəlxalq təcrübəyə uyğun "beyin axınının geri çevrilməsi" siyasətinin formalaşdığını göstərir.

Elm və Təhsil Nazirliyi bu istiqamətdə artıq bir sıra sistemli addımlar atır. Nazirliyin nəzdində yaradılmış "Xaricdə təhsil almış mütəxəssislərin məlumat bazası" ölkəyə qayıdan məzunların elmi, pedaqoji və idarəetmə sahələrində yerləşdirilməsini asanlaşdırır. Paralel olaraq, Təhsilin İnkişafı Fondu

və ADA Universitetinin birgə təşəbbüsü ilə "Returning Scholars Program" çərçivəsində xaricdə doktorantura və magistratura təhsili almış mütəxəssislər üçün universitetlərdə qısamüddətli tədqiqat və dərs proqramları təşkil edilir. Bu, onların həm adaptasiya, həm də akademik inteqrasiya imkanlarını genişləndirir. Bundan əlavə, "Gənc Alimlər Fondu", "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu" kimi qurumlar geri dönən gənc tədqiqatçılara qrant və startap dəstəyi təqdim edir.

İqtisadi stimullaşdırma da motivasiyanın əsas tərkib hissəsidir. Dövlət proqramına əsasən, xaricdə təhsil almış gənclər dövlət və özəl sektor arasında körpü rolunu oynaya bilərlər. Məsələn, geri dönən mütəxəssislər üçün xüsusi vergi güzəştləri və müvəqqəti mənzil dəstəyi modelləri tətbiq olunan ölkələr (Cənubi Koreya, İrlandiya, Estoniya) bu sahədə uğur nümunələridir. Estoniyada "Talents Back Home" proqramı çərçivəsində qayıdan alimlərə ilk iki il üçün 30% əməkhaqqı əlavəsi və dövlət mənzil təminatı verilir. Bu model insan kapitalının dövlət üçün iqtisadi sərmayə olduğunu praktik şəkildə göstərir. Azərbaycan üçün də bu cür mexanizmlərin tətbiqi məqsədəuyğundur və Elm və Təhsil Nazirliyinin gələcək strategiyalarında bu tip modellərin yer alacağı gözlənilməndir.

Sosioloji tədqiqatlara əsasən, Azərbaycanlı tələbələrin təxminən 40 faizi təhsil aldığı ölkədə qalmaq istədiyini, 60 faizi isə geri dönmək istədiyini bildirir. Amma bu 60 faiz arasında real qayıdanların sayı 35–40 faiz civarındadır. Bu fərqin səbəbi yalnız maaş deyil, həm də dəyərləndirilmə və şəffaflıq hissinin zəifliyidir. Əgər xaricdə təhsil almış gənc Azərbaycanda meritokratiya — yəni bilik və bacarığa əsaslanan yüksəliş imkanlarını görsə, onun ölkəyə qayıtmaq qərarı daha güclü olar. Buna görə də dövlətin paralel məqsədi təkcə iqtisadi deyil, həm də institusional mühitin yenilənməsidir.

Müsbət tərəf ondan ibarətdir ki, Elm və Təhsil Nazirliyi artıq xaricdə təhsil alan gənclərin ölkəyə qayıdışını inzibati öhdəlik kimi deyil, sosial üstünlük kimi təqdim etməyə başlayıb. Nazir Emin Əmrullayevin sözlərinə görə, "Dövlət proqramının məqsədi gəncləri ölkədən çıxarmaq deyil, onların daha güclü biliklərlə geri qayıdıb, təhsilə və iqtisadiyyata töhfə verməsini təmin etməkdir." Bu yanaşma motivasiyanın mahiyyətini dəyişir — yəni "borc" prinsipi yerini "fayda" prinsipinə verir.

Hesab edirəm ki, xaricdə təhsil almış gənclərin geri dönüş motivasiyası yalnız fərdi vətənpərvərliklə deyil, sistemli dövlət siyasəti ilə də əlaqəlidir. Azərbaycanda artıq bu istiqamətdə normativ baza mövcuddur, iqtisadi və akademik stimullar tətbiq olunur, sosial mühitin formalaşdırılması istiqamətində işlər aparılır. Lakin gələcəkdə bu prosesin davamlı olması üçün iki əsas şərt vacibdir: birincisi, xaricdə qazanılmış biliklərin ölkə daxilində tətbiqinə real şərait yaradılmalı, ikincisi, gənclər özlərini burada potensialının qiymətləndirildiyi bir sistemdə hiss etməlidirlər. Əgər bu iki prinsip təmin olunarsa, "beyin axını" prosesi tədricən "beyin qayıdışı"na çevriləcək və Azərbaycan bu gənclərin təcrübəsindən sosial, elmi və iqtisadi mənada uzunmüddətli fayda əldə edəcək".

Səbinə Hüseynli

Azərbaycan Yaxın Şərqdəki sülh prosesində mühüm iştirakçıya çevrilir

"Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində rəsmi Bakının iştirakı ilk növbədə Azərbaycanın artıq təkcə regional proseslərdə deyil, eyni zamanda qlobal beynəlxalq proseslərdə də aktiv iştirakını və vacib tərəfdaş statusunu sübuta yetirir.

Əgər dünənə kimi, dünyanın Çin, ABŞ kimi supergücləri Cənubi Qafqaz bölgəsində əsas tərəfdaş kimi Azərbaycanı seçirdilərsə, artıq rəsmi Bakı beynəlxalq oyunçuların daha böyük sammitlərində önəmli qonaq kimi təmsil olunur. Bu fakt, olduqca mühüm göstəricidir".

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. M.Salahov bu qənaətdədir ki, rəsmi Bakının son aylarda Suriyanın bərpası və enerji təminatı ilə bağlı mühüm işlərə imza atması artıq Azərbaycanın Yaxın Şərqdəki proseslərdə iştirak hüququnu da möhkəmləndirib. "Uzun illərdən sonra, daha dəqiq ifadə etsək, Bəşər Əsəd rejiminin süqutundan sonra Azərbaycan Suriya ilə əlaqələri bərpa etməklə kifayətlənmədi, həmçinin bu ölkənin enerji sektorunun yenidən yaradılmasında iştirak etməyə başladı. Bu faktın özü hazırda Avropanın əsas enerji təchizatçısına çevrilən Azərbaycanın eyni zamanda Yaxın Şərqdəki iqtisadi və siyasi proseslərdə də aktiv roluna bariz nümunədir. Əslində bu qətiyyən təsadüfi deyil. Çünki hazırda dünyanın enerji sektorunda önəmli yerə sahib olan Azərbaycan həm də mühüm beynəlxalq danışıqlar üçün əsas məkan sayılır. Ən kritik danışıqlar məhz Bakıda keçirilir ki, bu da həm Azərbaycana olan beynəlxalq etibar deməkdir, həm də rəsmi Bakının dünyadakı önəmli proseslərdə önəmli iştirakçı statusunun dünya gücləri tərəfindən qəbul edildiyini göstərir".

Mətləb Salahov: "Artıq Azərbaycan qlobal beynəlxalq tərəfdaş statusundadır"

Yeni güc və yeni savaş

Ermənistanda yeni müxalifət formalaşır

Ermənistanda iç savaşın bəzi simptonları görünməkdədir. Paşinyan hökumətinə düşmən olan siyasi birliklər baş nazirə qarşı olan hər kəsi ətrafına toplamaq üçün ciddi cəhdlər edirlər. Sayları azdır, üstəlik xarici dairələrdən dəstək tam dəqiqləşməyib. Nə Rusiya, nə də Avropa İrəvandakı qüvvələrinə bel bağlaya bilmirlər. Ermənistan paytaxtında biabırçı oliqarx Samvel Karapetyanın rəhbərlik etdiyi "Bizim yol" hərəkatının qurultayı keçirilib.

Təşkilatın koordinatoru və onun liderinin qardaşı oğlu Narek Karapetyanın bildirdiyinə görə, son altı həftə ərzində onlara 5000 könüllü qoşulub. Gələn həftə onlar liderlərinə dəstək aksiyası keçirməyi planlaşdırırlar. "Bizim yol" hərəkatının koordinatoru Narek Karapetyan tərəfdarlarına müraciət edərək əminliklə deyib: "Əgər bizim tərəfdarlarımızın sayı eyni sürətlə artmaqda davam edərsə, qarşıdakı aylarda on minlərlə sayımız olacaq və bu, artıq geri dönməz dəyişikliklərə doğru böyük bir addımdır. Komandamız gəncdir və insanlar bizə Samvelin adına görə qoşulduqlarını deyirlər. Ardıcıl olacaq, namusumuzu qoruyacaq, xalqımızın ideyaları və proqramları ilə Ermənistanı nümunəvi ölkəyə çevirəcəyik".

Xatırladaq ki, Samvel Karapetyan 110 gündən artıqdır ki, həbsdədir. Onu dövlət çevrilişinə təhrik ittihamı ilə barmaqlıqlar arxasında 5 ilə qədər həbs gözləyir. Oliqarxın müraciəti onun Ermənistanın baş naziri Nikol Paşinyanın hücumlarına qarşı istənilən vasitə ilə Erməni Apostol Kilsəsini (EAK) müdafiə edəcəyi vədi ilə əsaslandırılıb. Bu, son vaxtlar ilk belə hal deyil. Məsələn, oktyabrın 3-də arxiyepiskop Mikael Ajapaxyan dövlət çevrilişinə təhrik ittihamı ilə iki il müddətinə azadlıqdan məhrum edilib. Prokurorluq onun iki il yarımlıq cəzasını istəsə də, məhkəmə yumşaqlıq nümayiş etdirib. Bu günlərdə keşişin adı çox az çəkilsə də, bir il əvvəl o, başqa bir arxiyepiskop, "Müqəddəs mübarizə" hərəkatının banisi Baqrat Qalstanyanın ən yaxın adamlarından biri idi. Onlar birlikdə bir neçə ay ərzində İrəvanda minlərlə etiraz yürüşünə rəhbərlik edərək, Paşinyanı Dəccal və Türkiyənin agenti adlandırıblar. Qalstanyanın məhkəməsi davam edir, onu 15 ilə qədər həbs gözləyir.

Samvel Karapetyan həbsxanadan öz hərəkatının üzvlərinə müraciət edərək bildirib ki, "Bizim yol" hərəkatı ölkənin siyasi həyatında mühüm dəyişikliklərə səbəb olub. "Bu, hamımızın nailiyyətidir və bu, bütün erməni xalqının nailiyyəti olmalıdır. Mən minlərlə ləyaqətli insanın bizim hərəkatımıza qoşulmasını şərəf hesab edirəm və bilirəm ki, onun həqiqi milli hərəkata çevrilmək potensialı var, biz bundan sonra da Ermənistanın hərəkatını dayandırmayacağıq, firavan və xoşbəxt ölkə biz bunu öz yolumuzla edəcəyik", - deyə bildirib.

Bu arada onun bacısı oğlu elan edib ki, "Bizim yol" baş nazirliyə namizəd göstərməyə hazırlaşır və o, bütün ermənilərin ümidlərini doğruldacaq. Lakin hərəkat ilk növbədə özünü siyasi partiyaya çevirməlidir. Bunun yanvar ayında baş verəcəyi gözlənilir. Bundan başqa, "Bizim yol" liderləri keçmiş prezidentlər Robert Köçəryan və Serj Sarkisyanın "Ermənistan" və "Mənim şərəfim" blokları ilə müttəfiqlik etməyəcəklərini vəd edirlər, çünki Ermənistanın hakim elitasında nəsil dəyişikliyinə ehtiyac var. Bununla belə, bir xəbərdarlıq var. "Biz bəyan etmişdik ki, Köçəryan və Sarkisyanla seçkiqabağı heç bir ittifaqa girməyəcəyik, lakin bu qüvvələrin nümayəndələri ilə əməkdaşlıq etməyəcəyimizi və müttəfiq olmayacağımızı deməmişik", - Narek Karapetyan bildirib.

Bu arada...

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Daron Açemoğlu hərəkata məsləhətçi kimi qoşulub. Türkiyədə doğulmuş, lakin hazırda ABŞ-da yaşayan o, Ermənistanın çiçəklənməsi üçün süni intellektin (AI) inkişafına diqqəti yönəltməyi təklif edir. "Ermənistanın çağırışları onun coğrafi mövqeyi ilə müəyyən edilir. Bu halda rəqəmsal texnologiyalara əsaslanan xidmət iqtisadiyyatı Ermənistana üstünlük verir... Süni intellekt Ermənistanın iqtisadi tərəqqisinin hərəkətverici qüvvəsinə çevrilə bilər", - Açemoğlu konqresdə bildirib.

Eyni zamanda, onun sözlərinə görə, Ermənistanı xarici investisiyalar üçün daha cəlbedici etmək üçün mülkiyyət hüquqlarına hörmət etmək vacibdir. Bu baxımdan o, Paşinyan hökumətinin Karapetyanın Ermənistanın Elektrik Şəbəkələrini milliləşdirməsindən narazı qalıb. Qeyd edək ki, Məxməri İnqilabdan dərhal sonra Paşinyanın komandası Acemoğlunu əməkdaşlığa dəvət edib. Şayiələrə görə, iqtisadçı razılaşıb, lakin göstərdiyi xidmətlərə görə 300 min dollar istəyib, İrəvan bunu ağlabatan qiymət hesab etməyib. Digər versiyaya görə, Paşinyan Acemoğlunun təkliflərini respublikaya aidiyyatı olmayan hesab edib.

Hər halda qeyd etmək lazımdır ki, "Bizim yol" hərəkatı hazırda ilk növbədə "Ermənistan" və "Mənim namusum var" seçicilərinə müraciət edir, onların tərəfdarlarını faktiki olaraq cəlb edir. Karapetyanın təşkilatı başqa fikirli insanlarla praktiki olaraq heç bir əlaqədə olmayıb, o cümlədən heç bir reklam kampaniyası aparmayıb. İrəvanlılar hətta zarafat edirlər ki, elan olunan 5 min könüllü Karapetyanın biznes imperiyasının işçiləridir. Köçəryan və Sarkisyan komandalarını bəyənməyənlər respublika daxilindəki kvazi-kriminal dairələrə və Moskvanın qeyri-rəsmi dəstəyinə arxalanaraq "Bizim yol"u Paşinyana qeyri-adekvat alternativ hesab edirlər.

Bununla belə, hətta belə bir strategiya oliqarxa 2026-cı il iyunun əvvəlinə təyin edilmiş növbəti parlament seçkilərində səslərin 20%-ə qədərini qazana bilər. Və bu, indiki hakim Mülki Müqavilə partiyasının seçkilərə qədər öz populyarlığını qoruyub saxlamasını nəzərdə tutur. Digər məsələ ondan ibarətdir ki, növbəti Qanunvericilik Məclisində başqa müxalifət partiyası olmaya bilər.

"Troyka" güc axtarır

Hansı müxalifətçi ədalətli mübarizədə Paşinyana qalib gələ bilər? Köçəryan? Sarkisyan? Tatoyan? İnsanları güldürməyin. Məlum olduğu kimi, Ermənistanda növbəti parlament seçkiləri 2026-cı il iyunun 7-nə təyin edilib. Lakin indidən seçkilərdə iştiraka hazır olan, heç olmasa parlamentdə mandat arzusunda olan keçmiş deputatlar arasında müxtəlif siyasi qüvvələrin fəallaşmasının şahidi oluruq. Üstəlik, onlar yol boyu bir-birini dirsəkləyib, rəngarəng şüarlarla seçkiyə gedirlər.

Ermənistanın ikinci prezidenti bu həftə keçirdiyi mətbuat konfransında faktiki olaraq hakim elitaya meydan oxuyaraq, komandasının seçkilərdə iştirak edəcəyini bəyan edib. Köçəryan 2021-ci il seçkilərində iştirakının onun kütlələri birləşdirməkdə müəyyən təsir imkanlarına malik olduğunu nümayiş etdirdiyini qeyd edərək, bununla öyündüyünü bildirib. O növbədənkənar parlament seçkiləri ərəfəsində müxalifət parlamentdə çoxluğu təmin etmək və bununla da hökumət qurmaq ərəfəsində səbirsizliklə əllərini ovuşdururdu. Keçmiş müxalifətin gözləntiləri başa düşüləndir - ölkə müharibəni yenicə uduzmuşdu və cəmiyyət son həddə qədər gərgin idi.

Amma bir möcüzə baş verdi – demək olar ki, son anda seçki qutusunda seçicilərin ağlı onların emosiyalarından üstün oldu və əksəriyyət Paşinyanın kursuna səs verdi və 54% səslə Robert Köçəryanın, o cümlədən III prezidentin elektoratını məyus etdi. Beləliklə, Sedrakın oğlu Robert indi hansı "kütlələrin birləşdirilməsində müəyyən təsirdən" danışır? Köçəryanın növbəti seçkilərdə daha yaxşı nəticə əldə edəcəyi ehtimalı yoxdur.

Köçəryanın ən azı 15-20% səs toplamaq şansı olduğu halda, Serj Sarkisyan ağır vəziyyətdədir. Bununla belə, Azatın oğlu hələ də Ermənistanın siyasi Olimpində öz layiqli yerini tutmaq arzusundadır. O, başa düşmür ki, respublikaçılara, şəxsən Sarkisyana Ermənistan cəmiyyətində Köçəryandan, məsələn, Ter-Petrosyandan da xor baxırlar? Həm də ona görə ki, onun dövründə Ermənistanda həyat sələfləri dövründəkindən daha da pisləşib, hökumət tamamilə korrupsiya bataqlığında qalıb, biznes isə prezidentin qardaşı Saşik tərəfindən boğulub məhv edilib. Köçəryanın ən azı daxili özəyi var, o, ölüm-dirim mübarizəsi olmadan hakimiyyəti heç kimə verməzdi — məsələn, 2008-ci ilin mart hadisələrini xatırlayın. Sarkisyan siyasi həyatının əsas döyüşünü 2018-ci ilin yazında uduzdu. Ona görə də o, siyasətdən çox, müstəntiqlərə çağırışlardan azad, dinc təqaüdə çıxmaq arzusunda olmalıdır.

Və nəhayət, Ermənistan parlamentində çoxluğa daha bir namizəd – keçmiş ombudsman Arman Tatoyan üzə çıxıb, o, cümə axşamı 2026-cı ildə Ermənistanda keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətində olduğu "Birlik qanadları" siyasi qüvvəsini təqdim edib. "Mən öz səylərimi və komandamın səylərini ölkəmizin və xalqımızın maraqlarının qorunmasına yönəltməyə çalışacağam", - Tatoyan bildirib. Eks-ombudsman çalışdığı illərdə ayrı-ayrı, məsləhət bildiyi şəxslərin mənafeyini "layiqincə" qoruya bilib. İndi ölkənin, xalqın mənafeyi baxımından nə etmək istəyir? Tatoyan yalnız Paşinyanla qarşıdurması ilə yadda qalıb. İndi o, nəyə ümid edir?

Ən gülməlisi isə odur ki, müxalifət, xüsusən də Tatoyanın adamları fəal şəkildə şayiələr yayırlar ki, guya hakimiyyətin keçmiş ombudsmanın seçkilərdə iştirakına və baş nazirliyə namizədliyinə mane olması üçün onun əleyhinə fəal təbliğat aparılır. Onlar iddia edirlər ki, hakimiyyət şansından asılı olmayaraq hər hansı yeni müxalif siyasi qüvvənin meydana çıxmasını dayandırmaq tapşırığı alıb. Bundan əlavə, 2026-cı il seçkiləri öncəsi məqsəd bütün müxalifət icmalarını və onların liderlərini neytrallaşdırmaq, mümkün olduqda onları aradan qaldırmaq, mümkün olmadığı təqdirdə isə onları tabe edib sakitləşdirmək olub.

Bunun tam cəfəngiyyat olduğunu başa düşmək üçün Paşinyanı tanımaq və anlamaq lazımdır. Müxalifətdən kim ədalətli mübarizədə Paşinyana qalib gələ bilərdi? Köçəryan? Sarkisyan? Tatoyan? İnsanları güldürməyin. Eyni adamlar həm 2018, həm də 2021-ci illərdə Paşinyanı ən yaxşısı olduğu üçün deyil, nifrət və keçmiş prezidentləri – ölkəni diz çökdürən oliqarx dairələrin eyni nümayəndələrini – yenidən hakimiyyətdə görmək istəmədikləri üçün dəstəklədilər. Deməli, necə deyərlər, xəyal qurmağın ziyanı yoxdur, cənablar.

Üstəlik, bu günlər Köçəryan-Sarkisyan rejiminin dövrləri deyil, burada hakimiyyətin rəqiblərini və əleyhdarlarını fiziki olaraq aradan qaldırmaq mümkündür. Paşinyan da buna görə tərifə layiqdir. Ona görə də qarşıdan gələn seçkilərin nəticəsini indidən proqnozlaşdırmaq ümumiyyətlə asandır. Və gücə can atan bu dəstə ümidləri qorumağa və hər cür yüksək nağıllar uydurmağa davam edə bilər - onsuz da Ermənistanda heç kim onlara uzun müddət inanmayıb.

V.VƏLİYEV

Zirvələrin fəth edilməsi ilə yeni tarix yazılır

Bu günlərin hər bir anı, dəqiqəsi, saatı bizlər üçün əzizdir, müqəddəsdir. Məhz 2020-ci il sentyabrın 27-dən etibarən Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla 30 il erməni işğalı altında olan torpaqlarımız azad edilməyə başladı. İlk gün 6 kəndin işğaldan azad edilməsi sevincini yaşadıq, hər kəs bir –birini təbrik etdi, əllər göylərə ucaldı, insanlar "Allah sənə çox şükür, sən haqq mübarizəmizdə bizə kömək ol" deyildi, o dilək də vurğulandı ki, "Allahım sən bizim döyüşən ordumuzu, əsgər və zabitlərimiz qoru". Şəhidlərimiz oldu, qazilərimiz düşdü, insanlar əyilmədilər, ruhdan düşmədilər birbirinə başsağlığı verdilər, "başın sağ olsun, Vətən var olsun" dedilər.

Xain düşmən Gəncəyə, Bərdəyə və digər şəhərlərimizə raket hücumları etdi, xalq daha da birləşdi, daha böyük əzm və qətiyyətlə düşmənin məhv edilməsi üçün Ali Baş Komandan, Fateh Sərkərdə, Prezident İlham Əliyevin ətrafında birləşdi. Xalqın dəstəyindən, torpaqlarımızın azad edilməsindən ruhlanan müzəffər ordumuz yüksək əhval-ruhiyyə ilə irəli getdi, daha böyük ərazilərimizin işğaldan azad etməyə nail oldu. Oktyabrı 4-ü 2020-ci ildə Cəbrayılın ardınca oktyabrın 9-da Hadrut düşməndən azad edildi. Erməni terrorçu dəstələri Azərbaycan ordusunun Şuşaya başqa istiqamətdən gedəcəyini gözlədiyi halda Azərbaycan Ordusu məhz Hadrutu azad edib, sonradan Şuşaya doğru istiqamət aldı. Noyabrın 8-i 2020 - ci ildə Qarabağımızın incisi Şuşa şəhəri erməni terrorçu dəstələrindən azad edildi. Bu baxımdan demək olar ki, Şuşanın azad olunmasında Hadrut döyüşlərinin çox böyük rolu olub. Biz millət olaraq qələbəni masa üzərində deyil döyüş meydanında əldə etdik. Bu qələbə müstəqilliyimizin tarixinə qızıl hərflərlə yazılır. Bu gün olduğu kimi gələcəkdə də yetişən nəsil 44 günlük Vətən Müharibəsində əldə olunan böyük qələbənin incəliklərini öyrənməyə, mənimsəməyə çalışacaq. Ermənilər isə bundan sonra başlarını qaldıra bilməyəcəklər, gələcəkdə gənc ermənilər erməni olduqlarına görə xəcalət çəkəcəklər, utanacaqlar, babalarını söyüb, təhqir edəcəklər. Ona görə də Paşinyan indi özünü ağıllı göstərməyə çalır. Deyir ki, bilsəydi ki, rüsvayçı məğlubiyyətlə üzləşəcəklər müharibəyə girmədən işğal olunan Azərbaycan torpaqlarını qaytarardı. 2020-ci ilin sentyabrın 27-ə qədər Paşinyan fərqli fikir söyləyirdi, Şuşaya gəlib, içki qəbul etdikdən sonra təlxəklik edirdi, başında böyük fikirlər səsləndirirdi.

Qısa müddətdə Azərbaycan ordusu erməni silahlı terrorçu dəstələrini zərərsizləşdirməyə nail oldu

Tarixə nəzər yetirdikdə bir daha bəlli olur ki, Ermənistanın terrorçu rəhbərləri 1991-1993-cü illərdə Azərbaycanda yaranan hakimiyyət böhranından, AXC-Müsavat iqtidarının səriştəsizliyindən istifadə edərək 20 faiz torpaqlarımızı işğala edib, 1 milyona yaxın insanı ev -eşiyindən didərgin salmışdır. 30 ilə yaxın bu vəziyyət davam etdi. Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən 4 qətnamə qəbul etsə də Ermənistan bu qərarlara əhəmiyyət verməyib. Bununla yanaşı AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sülh danışıqlarında nəticəsiz qaldı. Təbii ki, sonsuza qədər danışıqlar aparıla bilməzdi. Bir gün status-kvo dəyişməli idi və belə də oldu. 2020-ci ilin iyulun 12-də Ermənistanın silahlı qüvvələri artilleriya və iriçaplı silahların köməyilə Tovuz rayonunun Ağdam kəndi istiqamətində Azərbaycan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədindəki mövqelərinə hücuma keçdilər. Sözügedən hücum nəticəsində Azərbaycanın 11 hərbçisi həlak oldu, bir neçəsi yaralandı, həmçinin dinc sakinlər həyatlarını itirdilər, mülki obyektlərə, kəndlilərin evlərinə və xəstəxana binasına ciddi zərər yetirildi. Hücum üçün məhz Tovuzun istiqamət seçilməsinin səbəbi o idi ki, Ermənistanla dövlət sərhədi aktiv hərbi münaqişə zonası hesab olunmadığından, orada Azərbaycan hərbi qüvvələrinin əsas hissələri cəmləşməyib.

Hücumun istiqamətini müəyyənləşdirən amillərdən biri də sözügedən bölgənin strateji mövqeyi və Azərbaycanın enerji və nəqliyyat infrastrukturunun əhəmiyyətidir. Ermənistan, Azərbaycanın neft infrastrukturunun özünün əsas hərbi hədəflərindən biri olduğunu gizlətmir. Bundan əlavə, Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi bölgədə yeni gərginlik mənbəyi yaratmaq və münaqişənin coğrafi genişləndirilməsi yolu ilə özünün də iştirakçısı olduğu KTMT-nin müdaxiləsinə bəraət qazandırmaq idi. Lakin ermənilərin məkrli planları alt-üst edildi. Qısa müddətdə Azərbaycan ordusu erməni silahlı terrorçu dəstələrini zərərsizləşdirməyə nail oldu. Bundan sonra Ermənistan rəhbərli himayədarlarını dövriyyə salmaqla və üzərinə öhdəliklər götürməklə vəziyyətin normallaşmasına nail olundu. Lakin Ermənistan öhdəliklərini yerinə yetirmədi. BMT Təhlükəsizlik Şurası da susmağa üstünlük verirdi. Mötəbər təşkilatın erməni qoşunlarının Qarabağdan qeydsiz-şərtsiz çıxarılması ilə bağlı verdiyi dörd qətnamənin icrasına maraq göstərmədi. Bununla yanaşı, işğal etdiyi Azərbaycan ərazilərinin qanunsuz məskunlaşdırılması ilə bağlı erməni tərəfinin həyata keçirdiyi siyasət, Livan ermənilərinin məqsədyönlü şəkildə həmin rayonlara köçürülməsi və Qarabağla Ermənistan arasında yol infrastrukturunun inşa edilməsi vəziyyəti daha da ağırlaşdırdı və danışıqlar prosesini dayandırdı.

Zəfərə gedən yol

Sentyabrın 27-də başlayan Vətən Müharibəsi erməni-terrorçu hərbi birləşmələrinin və onların havadarlarının rüsvayçı formada məğlubiyyəti ilə başa çatdı. Şuşamızın düşməndən təmizlənməsi ilə Ermənistanın ağ bayraq qaldıraraq təslim olmaqdan başqa çıxış yolu qalmadı. Çünki Paşinyanın və digər Ermənistan rəhbərlərinin də etiraf etdiyi kimi müharibə bir qədər də uzansa idi 25-30 min erməni silahlısı tam şəkildə mühasirəyə düşəcəkdilər. Bundan sonra mühasirədə olan erməni silahlıları ya öldürüləcək, ya da əsir alınacaqdılar. Paşinyan və komandası növbəti rüsvayçılıqla üzləşməmək üçün təslim olmağa üstünlük verdilər. Müharibənin xronologiyasına nəzər yetirərkən onu vurğulamaq olar ki, Şuşanın azad edilməsi həlledici hərbi qələbədir. Bununla tam şəkildə Qarabağa qovuşa bildik. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi» söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir ki, "Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək.

Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!" Haqqımız olan qələbə təntənəli şəkildə qeyd olunmalı idi və oldu da. Noyabrın 10-da dostları sevindirib, düşmənləri xar edən qələbə paradı keçirildi. Bu parad həm də işğal altında olmuş torpaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. "Azadlıq" meydanında keçirilən Qələbə Paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Parada, həmçinin, Vətən Müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. 2020-ci noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə bildirmişdir ki, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın: "Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı.Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

Ulu Öndərimiz Heydər Əliyevin tarixi fikri yada düşür "Mən fəxr edirəm ki, azərbaycanlıyam"

Qələbə paradında Azərbaycanla bərabər dost, qardaş ölkənin vətəndaşları, ordusunun əsgər və zabitləri, baş Komandan , Prezident Rəcəb Tayyib Ərdoğan da iştirak etdilər. Qələbə Paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı bildirdi ki, Türkiyə hər zaman Azərbaycanın yanında olacaq: "İnanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dastan yazmağa davam edəcək. Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin "iki millət, tək dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik".

Qələbə Paradında Türkiyə Ordusunun mehmeçikləri sıra keçidində qürurla və əzmlə keçdilər. Bu məqamda Türkiyə qardaşlarımızın bizə olan hədsiz rəğbətinin daha bir nümunəsi ondan ibarət idi ki, Qarabağda şəhid olan 2783 şəhidimiz sayında mehmetçik sıra keçidində iştirak etdilər. Əhsən belə qardaşlığa, var olsun belə birlik. Söz yox ki, qələbə paradımızın yolu uğurlu və xeyirli olacaq. Qələbə Paradı Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılmaqla yanaşı, həm də zamanında Ermənistana pay olaraq verilən Zəngəzurun, Göyçənin, İrəvanın Böyük Azərbaycan torpaqlarına qatılmasına işartı olacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qələbə Paradında dediyi fikirlərdə ümidləri artırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qələbə Paradında Zəngəzurun, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirdi: "Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqressiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

Bu məqamda Ulu Öndərimiz Heydər Əliyevin tarixi fikri yada düşür: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Bəli, Ulu Öndərimizin dediyi kimi biz fəxr edir və qürur duyuruq ki, qalib dövlətin qürurlu vətəndaşlarıyıq.

İLHAM ƏLİYEV

Əcnəbilərlə ailə qurmağa artan maraq: təsadüf, yoxsa dövrün tələbi?

Son illərdə cəmiyyətdə diqqətçəkən sosial dəyişikliklərdən biri də insanların, xüsusilə də gənclərin, xaricilərlə ailə qurmağa daha çox meyillilik göstərməsidir. Əvvəllər evliliklər əsasən milli və dini dəyərlər üzərində qurulurdusa, indi bir çoxları fərqli ölkələrdən olan insanlarla ailə həyatı qurmağa üstünlük verirlər.

Bunun arxasında bəziləri daha yaxşı maddi şərait, digərləri isə münasibətlərdə hörmət, sevgi və qarşılıqlı anlayış axtarışını görür. Bəzi hallarda isə bu meyil "öz vətəndaşlarımız bir-birini dəyərləndirmir" fikri ilə əsaslandırılır. Lakin məsələ birmənalı deyil: bu seçimlər həqiqətən xoşbəxtlik gətirirmi, yoxsa sadəcə müasir dövrün təsiri ilə yaranan bir tendensiyadır? Maraqlıdır, insanlar bu dəyişən münasibətə necə baxır, bu halı nədən doğan bir reallıq kimi görürlər? SİA bu mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu aparıb.

Şəhər sakini Günel Həsənova: "İnsanın qarşısına düzgün insan çıxandan sonra onun xarici vətəndaş olub-olmaması mənim üçün önəmli deyil. Düşünürəm ki, ölkəmizdə bir çox insanın, xüsusilə qadınların, qarşı cinsin verdiyi sözü tutmaması onları xarici vətəndaşlarla ailə qurmağa meyilləndirən əsas amillərdəndir. Hər kəsin öz fərdi qərarı var, insan necə xoşbəxtdirsə, elə də davranmalıdır. Sosial şəbəkələrdə xaricilərlə ailə həyatı quran çoxlu insan görürəm və mənə bu münasibətlər səmimi gəlir. Şəxsən qarşıma belə bir fürsət çıxsa, mən də bu qərarı dəyərləndirərdim. Əksər hallarda belə tanışlıqlar xaricdə təhsil, xarici vətəndaşların Azərbaycanda yaşaması və ya turist kimi gəlməsi zamanı baş verir. Sosial şəbəkələr də bu prosesdə böyük rol oynayır".

Şəhər sakini Sabir Muradov: "Mən xaricilərlə ailə həyatı qurmağı məsləhət görməzdim. Çünki belə evliliklərdə çox problemlər olur. SSRİ dağılandan sonra xarici şirkətlər Azərbaycana gələndə mən istehsalatda işləyirdim və o vaxt bəzi qadınlarımız xaricilərlə ailə qurub ölkədən köçdülər. Amma bir müddət sonra çoxu ayrıldı. Sovet dövründə oğlanlar Rusiyada ailə qururdu, indi isə qızlarımız ingilislərlə və ya başqa millətlərdən olanlarla ailə qurur. Məncə, əsas səbəb maddiyyatdır. Buna görə də belə evliliklərə yaxşı baxmıram".

Şəhər sakini Mədinə Ələsgərova: "Fərqli millətlərdən olan insanla ailə qurmağa pis baxmıram. Sevginin milliyyəti və sərhədi yoxdur. Əgər mənim də qarşıma belə bir şans çıxsa, dəyərləndirərdim. Çünki bəzən azərbaycanlı kişilərdə mentalitetlə bağlı sərtlik müşahidə olunur, müasir düşüncə ilə ənənəvi baxış arasında uyğunsuzluq var. Xaricilər bu baxımdan daha müasir və azad düşüncəlidirlər, qadına söz haqqı tanıyırlar".

Şəhər sakini Hüseyn Qurbanov: "Bu məsələyə baxışım müsbətdir. Mən bunu qismət məsələsi hesab edirəm. Kimin taleyində necə yazılıbsa, elə də olacaq. Yaxın qohumlarımdan biri İran vətəndaşı ilə ailə həyatı qurub və indi çox xoşbəxtdirlər. Əsas məsələ insanın düzgün seçim etməsidir."

Şəhər sakini Zenfira Musayeva: "Xarici vətəndaşlarla ailə qurmaq üçün ilk növbədə dil bilikləri vacibdir. Əgər qarşılıqlı anlaşma varsa, niyə də ailə həyatı qurulmasın? Mənim iki qızım Türkiyədə təhsil alır, istər-istəməz belə hallarla qarşılaşa bilərlər. Ümumilikdə bu cür evliliklərə müsbət baxıram. Amma sosial şəbəkə vasitəsilə tanış olanlara münasibətim yaxşı deyil. Məncə, insanlar üz-üzə tanış olmalı, bir-birini yaxından tanımalıdır. Sosial mediada kiminsə real şəxsiyyətini tam bilmək olmur".

Şəhər sakini Nərgiz Səlimova: "Bu məsələyə qarşı deyiləm. Hər kəs istədiyi kimi ailə qura bilər. Əksər hallarda belə evliliklər xaricdə təhsil zamanı baş verir — ya bizim gənclər xaricdə təhsil alarkən tanış olurlar, ya da xarici vətəndaşlar Azərbaycanda oxuyarkən. Sosial şəbəkə vasitəsilə tanışlığa bir qədər ehtiyatla yanaşıram, çünki insanlar orada bir-birini real tanımır. Mən də gələcəkdə xaricdə təhsil alsam və belə bir vəziyyətlə qarşılaşsam, yəqin ki, dəyərləndirərəm".

Şəhər sakini Qəribə Məmmədova: "Əgər evlilik saf sevgi üzərində qurulubsa, millətin heç bir rolu yoxdur. Mən elə insanlar tanıyıram ki, Avropa vətəndaşları ilə ailə həyatı qurublar və xoşbəxtdirlər. Şəxsən mən müsəlman olan biri ilə — məsələn, Türkiyə vətəndaşı ilə — ailə qurmağın daha məqsədəuyğun olduğunu düşünürəm, çünki dil və din ortaqdır. Müasir dövrdə bu tip evliliklər təbii hal sayılmalıdır. Hətta həyat yoldaşı xarici olsa belə, uşaqlara əsas tərbiyəni Azərbaycanlı ana verir, bu da milli dəyərlərin qorunmasına kömək edir".

Günel Fərzəliyeva

SORĞU

Elçin Bayramlı

Qlobal quraqlıq və su böhranı: Azərbaycanı nə gözləyir?

Dünyada getdikcə iqlim dəyişikliklərinin yaratdığı problemlər kəskinləşir. Bir çox bölgələrdə quraqlıq, səhrəlaşma, su qıtlığı yaranır. Çaylar, göllər, bulaqlar quruyur, torpaqlar şoranlaşır. Nəticədə həm əhali, həm də iqtisadiyyat zərər çəkir. Bunun qarşısını almaq üçün ölkələr müxtəlif tədbirlər həyata keçirir. Azərbaycan da əraziyə və əhaliyə nisbətdə çox aşağı su ehtiyatlarına malikdir və bununla bağlı ciddi tədbirlər görülməsinə ehtiyac böyükdür.

Azərbaycanda su ilə bağlı problem artıq 20-25 ildir kəskinləşsə də, bu sahədə əsaslı islahatlar həyata keçirilməyib. Halbuki su təsərrüfatı dövlət büdcəsindən və xarici kreditlər hesabına ən çox maliyyə alan sahələrdən biridir. Buna baxmayaraq, hər il həm içməli su təchizatı, həm də suvarma ilə bağlı çətinliklər artır. Nəticədə iki istiqamətdə mənfi təsir yaranır: bir tərəfdən əhalinin içməli su təminatı həm həcm, həm də keyfiyyət baxımından zəifləyir, digər tərəfdən, kənd təsərrüfatında suvarma çatışmazlığı məhsuldarlığın azalmasına, əkinlərin yanmasına və iqtisadi itkilərə səbəb olur.

Azərbaycan su ehtiyatlarına görə, səhra ölkələrini çıxmaqla dünyada aşağı göstəricilərdən birinə malikdir və BMT-nin "su stresi altında olan ölkələr" siyahısına daxildir. Qafqaz regionunda da ən az su ehtiyatı ölkəmizdədir – Gürcüstandan təxminən 6, Ermənistandan isə 2 dəfə azdır. Su ehtiyatlarının 70 faizi transsərhəd çaylardan və başqa yollarla formalaşır, yalnız 30 faizi daxili mənbələr hesabınadır. Buna görə də hər hansı qlobal problem-quraqlıq və su böhranı baş verərsə, xarici mənbələrdən asılılıq vəziyyəti daha da ağırlaşdıracaq.

Problemin həlli üçün ölkənin su ehtiyatları elmi əsaslarla yenidən qiymətləndirilməlidir. Son belə qiymətləndirmə Sovet dövründə, 1980-ci illərdə aparılıb və 27 milyard kubmetr su ehtiyatı müəyyən edilib. Lakin son dövrlərdə bu rəqəm şübhə doğurur və müstəqil ekspertlər 1-25 milyard kubmetr aeasında müxtəlif rəqəmlər səsləndirir. Bu göstəricilər yenidən qiymətləndirilməli və dəqiqləşdirilməlidir.

İkinci məsələ su resurslarının səmərəli idarə olunması və itkilərin azaldılmasıdır. Hazırda Azərbaycanda su itkiləri 35-40 faiz təşkil edir, bu da dünya üzrə qəbul edilən 4-5 faiz göstəricisindən dəfələrlə çoxdur. Bu vəziyyət köhnə infrastruktur, vaxtında beton və ya boru xətinə çevrilməyən torpaq kanallar və az sayda su anbarlarının mövcudluğu ilə bağlıdır. Yeraltı su ehtiyatlarının istismarı üçün artezian quyularının sayı artırılmalı, kiçik çaylar üzərində yeni su anbarları tikilməlidir. Suvarmada qənaətcil texnologiyalar, xüsusilə damcılı və çiləmə sistemləri tətbiq edilməlidir. Dövlət fermerlərin bu texnologiyaları qurması üçün güzəştli kredit mexanizmləri yaratmalıdır.

Eyni zamanda, içməli suyun sənayedə texniki məqsədlərlə istifadəsinə son qoyulmalı, bu məqsədlər üçün alternativ texniki su mənbələri ayrılmalıdır. Torpaq kanallarda su itkisini azaltmaq üçün su xətləri beton və ya boru sistemlərinə keçirilməlidir. Bundan əlavə, sensor kranlar kimi qənaətcil avadanlıqların istifadəsi, yağış sularının toplanması və təkrar emal olunmuş suların sənaye sahələrində istifadəsi genişləndirilməlidir.

Qlobal proqnozlara görə, qarşıdakı onillikdə quraqlıq və su qıtlığı daha da artacaq. Prezident İlham Əliyev də bir neçə il əvvəl keçirilən müşavirədə bu problemi xüsusi vurğulayıb, 35-40 faizlik su itkisini "yolverilməz" adlandırıb. Dövlət bu sahəyə böyük vəsait ayırsa da, məsul orqanların səmərəsiz fəaliyyəti və nəzarətsizlik nəticəsində gözlənilən nəticə əldə olunmayıb. Su itkiləri 30 faizdən aşağı düşmür.

Suyun əsas hissəsini sənaye müəssisələri və aqrar sektor istifadə edir, əhali isə ümumi sərfiyyatda çox az paya malikdir. Buna görə də əsas diqqət istehsal və suvarma sahələrində itkilərin azaldılmasına yönəldilməlidir. Bundan əlavə yeni su mənbələri tapılmalı, artezian qurğularının, su anbarlarının yaradılması genişləndirilməli, torpaq kanallar beton və boru xəttinə çevrilməli, qənaətli istifadə texnologiyaları tətbiq olunmalıdır.

Su ehtiyatlarının qorunması, səmərəli idarə olunması və qənaətcil texnologiyaların tətbiqi Azərbaycanın gələcək su təhlükəsizliyinin əsas şərtidir. Əks halda, ölkə həm iqtisadi, həm də sosial baxımdan ciddi problemlərlə üzləşəcək.

Dünyanın dörd bir yanında müharibələr, münaqişələr baş verməkdədir. Bəzi yaranan müharibələrin dirijor çubuğu ilə törədilməsi versiyaları irəli sürülür. Bunu təsdiq edən sübutlar, dəlillər də ortaya qoyulur. Lakin müharibə caniləri hər vəchlə əməllərini etiraf etmək istəmirlər, əksinə, müharibə aparan tərəfləri qınayır, onlara qarşı ittiham irəli sürürlər. Bəzi hallarda isə özlərini sülhpərvər, dünyada sabitliyə, təhlükəsizliyə töhfə verməyə çalışan dövlətlər kimi təqdim etməyə çalışırlar. Rusiya sülhdən, əmin-amanlıqdan çox danışır, fikirlər səsləndirir, ancaq sözlərinin əksi olaraq əməldə Ukraynaya hücum edərək dörd ilə yaxındır ki, bu ölkəni qan gölünə çevirib. ABŞ İsrail vasitəsi ilə Livanda, Yəməndə, Tunisdə, xüsusilə də fələstin ərazilərində soyqırımı aktları həyata keçirib.

Pakistan-Əfqanıstan savaşı geniş coğrafi ərazini əhatə edə bilər

Vəziyyət o dərəcədə faciəvi xarakter alıb ki, daş qəlbli Avropa ölkələrinin başçıları İsraili açıq şəkildə ittiham edirlər. İspaniya, Kanada, Norveç və digər dövlətlər İsrailin Qəzzada soyqırımı aktları törətdiyini bəyan ediblər. BMT-nin İnsan Hüquqları Komitəsi 3 dəfə ardıcıl olaraq İsrailin Qəzzada genosid törətməsi barədə qətnamə qəbul edib. Beynəlxalq hərbi tribunal İsrailin baş naziri Netenyahunun törətdiyi soyqırımı aktlarına görə həbs olunması barədə qərar çıxarıb. İsrail isə özünü sərxoş alkaş kimi aparır, heç kimi saymır, heç bir beynəlxalq qətnamələrə əməl etmir. Yalnız başıpozuq dəstə rolunda çıxış edən İsrailin fars-molla rejiminə basqısı qismən başa düşülən hesab olunur. Çünki fars-molla rejimi terroru dəstəkləyən və terror aktlarını dövlət siyasətinə çevirən rejimdir. 2025-ci ilin iyunun 13-də başlayan və 12 gün davam edən İsrailin "Am Kelavi" adı altında fars-molla rejiminin ərazilərinə endirdiyi zərbələr nəticəsində nüvə obyektləri, İnqilab Keşikçilərinin 30-dan çox yüksək rütbəli komandiri məhv edildi. ABŞ-ın müdaxiləsindən sonra İsrail geri çəkildi. Bundan sonra İsrail daha böyük qüvvə ilə Qəzzada və ətraf ərazilərdə qətliamlar törətməyə başladı.

Onun bu vəhşiliyi Türkiyə başda olmaqla əksər müsəlman ölkələri tərəfindən qəzəblə qarşılanırdı. Hətta Türkiyənin hərkətə keçərək İsraili ciddi şəkildə cəzalandıracağı ehtimalları irəli sürürlürdü. Bunu anlayan ABŞ yenidən proseslərə müdaxilə etmək məcburiyyətində qaldı. Yəni İsraili xilas etmək üçün hərəkətə keçdi. Nəticədə D.Trampın irəli sürdüyü 20 bəndlik şərtlər daxilində İsrail-HƏMAS razılaşması əldə olundu. Razılşamaya əsasən, İsrail ordusunu Qəzzadan geri çəkir və həbsxanalarda saxladığı 2 minə yaxın fələstinlini azad edir, HƏMAS isə 2023-cü il oktyabrın 7-də girov götürdüyü yəhudiləri azad edəcək. Bununla Yaxın Şərqə sülh gələcəyini, bundan sonra insanların öldürülməyəcəyini demək çətindir. Təbii ki, bunu zaman göstərəcək. Görünən isə ondan ibarətdir ki, Türkiyə proseslərin önündə və beynəlxalq sülhyaratma missiyası tərkibində Qəzzada olacaq.

Pakistan–Əfqanıstan qarşıdurması bölgənin sülh gündəliyini pozur

İsraillə HƏMAS arasında yaşanan müharibənin aradan qalxmasına sevinən Yaxın Şərq dövlətləri, az sonra yeni bir müharibədən -Pakistan-Əfqanıstan qarşıdurmasından narahat olmağa başlayıb. Talibanın ərazisində terror aktları törətməsinə göz yummaq istəməyən Pakistan nəhayət oktyabrın 11-də hərəkətə keçərək sərhədboyu əməliyyatlar həyata keçirdi. Döyüşlərin əsas mərkəzi Əfqanıstanın Hilmənd əyalətindəki mübahisəli Bəhramça sərhəd məntəqəsidir. Ərəb mətbuatının iddiasına görə, Pakistan tərəfində yeni sərhəd nəzarət-buraxılış məntəqələrinin tikintisinə etiraz edən Əfqanıstan tərəfi Pakistanın bir neçə sərhəd məntəqisini atəşə tutub. Bu da Pakistan qoşunları və taliblər arasında toqquşmalar baş verməsinə gətirib çıxarıb. Bundan əvvəl, yəni 2025-ci ilin fevralında Pakistanın Bəlucistan vilayətində Talibanın dəstəklədiyi silahlı qruplar Pakistan əsgərlərinə hücum edib. Pakistan hərbi rəhbərliyi cavab olaraq Əfqanıstanın sərhəd bölgəsində yerləşən militant düşərgələrini bombalayıb. Hər iki tərəf arasında atəşkəs razılaşması əldə edilsə də, vəziyyətin yenidən gərginləşəcəyi ehtimal olunur.

Söz yox ki, Pakistan-Əfqanıstan qarşıdurmasının yaranmasında Hindistanın ikinciyə dəstəyi xüsusi rol oynayır. Çünki Pakistan Hindistanla faktiki qarşıdurma vəziyyətindədir. 2025-ci ilin apreli 28-də Pahalqomda 26 turistin qətlə yetirildiyi terror aktından sonra Hindistan hadisəyə görə Pakistanı ittiham edib. Mayın 7-də Hindistan "Sindoor" əməliyyatı adı altında 9 strateji hədəfə qarşı raket və pilotsuz uçuş aparatları ilə hücum həyata keçirib. Pakistanın cavab tədbiri olaraq 11 mayadək davam edən həmlələrdə Hindistanı geri otuzdurub. Pakistan Hindistanın "Rafale" və MiG 29 təyyarələrini məhv edib. 10 may 2025-ci il tarixində ABŞ-ın vasitəçiliyi ilə sazişə əsaslanan atəşkəs əldə edilib və hər iki tərəf danışıqlar masasına qayıdıb. Sakitlik yaransada Hindistan Pakistandan qisas almaq niyyətindən əl çəkməyir. Hər cür təxribatları ilə Pakisttanda vəziyyəti gərginləşdirməyə çalışır. Təəssüflər olsun ki, islam dövləti hesab olunan Əfqannlıstan Hindisatanın təsiri altına düşür.

Münaqişənin tarixi kökləri mövcuddur. Əfqanıstan və Pakistan arasında təxminən 2640 kilometrlik sərhəd mövcuddur. 1893-cü ildə Britaniya Hindistanı ilə Əfqan əmiri Əbdürrəhman Xan arasında razılaşma əsasında sərhədi müəyyən edilib. Bu xətt onun demarkasiyasına nəzarət edən Britaniya diplomatı ser Henri Mortimer Durandın şərəfinə adlandırılmışdır. 1947-ci ildə Britaniya Hindistanının bölünməsindən sonra xətt Pakistana verildi, lakin Əfqanıstan heç vaxt onu rəsmi dövlət sərhədi kimi tanımadı. Bu səbəbdən, ərazi onilliklər ərzində Cənubi Asiyada ən mübahisəli və qeyri-sabit ərazilərdən biri olaraq qalır. Sərhəd tarixən xəttin hər iki tərəfində yaşamış puştun tayfalarının məskunlaşdığı, əlçatmaz dağlıq bölgələrdən keçir. Sərt ərazi və etnik əlaqələr əraziyə nəzarəti çətinləşdirir. Bu bölgə silahlı qarşıdurma, qaçaqmalçılıq və ekstremist fəaliyyət ocağına çevrilib.

Oktyabrın 11-dən başlayan atışmalara sərhədboyu bütün əraziləri əhatə edir. Pakistanın SAMAA TV kanalının məlumatına görə, Əfqanıstan tərəfdən səbəbsiz atəş açılıb. Jurnalistlər ölkənin təhlükəsizlik güclərindəki mənbəyə istinadən bildiriblər ki, Pakistan buna cavab olaraq əməliyyat zamanı bir neçə əfqan postunu məhv edib və "onlarla" əfqan əsgərini öldürüb.

Əl-Cəzirənin yaydığı məlumata görə, qarşıdurmaya səbəb Pakistan ordusunun oktyabrın 9-da Kunar vilayətində sərhəd bölgələrini vurmasından sonra başlayıb. Yerli mənbələrin məlumatına görə, hücum zamanı bir neçə Taliban komandiri, o cümlədən bir səhra komandiri həlak olub. Ertəsi gün Taliban Pakistanın Çitral bölgəsindəki sərhəd mövqelərinə artilleriya zərbəsi endirib. Bunun ardınca tərəflər şərq və cənub sərhədləri boyunca atışmalara başlayıblar. Əfqanıstanın Müdafiə Nazirliyi zərbələri təsdiqləyərək bildirib ki, onlar cümə günü gecə Kabil və Paktika əyalətini atəşə tutanlara cavab veriblər. Taliban nümayəndələri sərhəddə Pakistana qarşı əməliyyatın "uğurlu" başa çatdığını bəyan ediblər. Əfqanıstan Müdafiə Nazirliyi həmçinin əlavə edib ki, Pakistan sərhədi yenidən pozarsa, ölkənin silahlı qüvvələri "qətiyyətli cavab verəcək".

Sərhəddə gedən döyüşlərdə 5 pakistanlı əsgərin həlak olduğu bildirilir. Əfqan tərəfi iddia edir ki, zərbələr Əfqanıstan ərazisinin atəşə tutulmasına cavabdır.TOLO News-un yenilənmiş məlumata görə, saat 22:46-a olan məlumata görə, Əfqanıstanla sərhəddə baş verən toqquşmalarda ən azı 12 pakistanlı əsgər həlak olub.

Taliban hökumətinin Müdafiə Nazirliyi Pakistanın hərbi obyektlərinə qarşı əməliyyata başladığını açıqlayıb. Zərbələr Əfqanıstana pilotsuz təyyarələrin buraxılması üçün istifadə edildiyi iddia edilən obyektləri, habelə qadağan olunmuş "İŞİD" təşkilatı ilə əlaqəli mərkəzləri hədəf alıb. Oktyabrın 11-i axşam saatlarında Əfqanıstan Hərbi Hava Qüvvələri Lahor şəhərinə aviazərbələr endirib. Bu hərəkət Pakistanın hücumuna cavab olduğu bildirilir. İslamabadın sərhəd bölgəsində Taliban mövqelərinə zərbələr endirdiyi bildirilir. Qeyd olunur ki, Pakistanın əks-hücümu nəticəsində Əfqanıstanın 19 sərhəd məntəqəsi ələ keçirilib və bir neçəsi dağıdılıb. Pakistanın hücumu nəticəsində 50 nəfər öldürülüb, 130 nəfər isə yaralanıb.

İki müsəlman ölkəsi arasında yaşanan qarşıdurma üzücüdür

Söz yox ki, iki müsəlman ölkəsi arasında yaşanan qarşıdurma arzuolunmazdır və üzücü hesab olunur. Çünki bu iki dövlət, xüsusilə də Pakistan müsəlman dövlətlərinə dəstəyi, yardımı ilə seçilir və tanınır. İşğalçı Ermənistanın ifşa olunmasında Pakistan beynəlxalq tədbirlərdə, konfranslarda Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etdi, dəstəklədi. İkinci Qarabağ savaşı zamanı Pakistan mənəvi dəstəyi ilə Azərbaycanın yanında oldu. Dəfələrlə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifi ölkəmizə rəsmi səfərlərə gəlib, Qarabağda olub, konfranslarda fəal iştirak edib.

Faktiki bütün sahələrdə Pakistanla Azərbaycan arasında geniş dostluq, qardaşlıq münasibətləri mövcuddur. Yazını çapa hazırladığım zaman məlumat aldım ki, oktyabrın 13-də Pakistanın paytaxtı İslamabad şəhərində Azərbaycan-Pakistan-Türkiyə parlament sədrlərinin üçüncü üçtərəfli görüşü başlayıb.Tədbirdə Milli Məclisin sədri Sahibə Qafarova, Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq və Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş iştirak ediblər. Parlament sədrləri ölkələrimiz və parlamentlərimiz arasında yüksək səviyyəli qardaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayaraq, bu görüşün də üçtərəfli parlament əməkdaşlığı üzrə qarşıya qoyulan məqsəd və hədəflərə çatmağımıza güclü təkan verəcəyinə inam ifadə ediblər.

İcraiyyə Toplantısında gündəlikdəki mövzularla bağlı geniş fikir mübadiləsi aparılıb.Sonra Azərbaycan-Pakistan-Türkiyə parlament sədrlərinin üçüncü üçtərəfli görüşünün açılış mərasimi başlayıb. Üçtərəfli görüşün parlament spikerlərinin çıxışı və deputatların da iştirakı ilə keçiriləcək geniş müzakirələrlə davam etdirilməsi nəzərdə tutulur.

Qısaca onu qeyd etmək olar ki, müsəlman dünyasının aparıcı dövlətlərindən olan Pakistanla əlaqələr qurmaq və onu inkişaf etdirmək hər iki tərəfə ancaq xeyir verir. Hesab edirəm ki, Azərbaycana yaxın dövlətlərdən olan Əfqanıstanın bu reallığı anlayaraq üzünü Hindistana və ya Rusiyaya deyil, müsəlman dövləti olan Pakistana tutsa, daha xeyirli olar. Həm də nəzərə almaq lazımdır ki, Taliban hakimiyyəti dünya birliyi tərəfində yetərli şəkildə tanınmır. Əfqanıstanın iqtisadi, sosial, siyasi problemləri mövcuddur. Problemlərinin həlli üçün Əfqanıstan qonşusu olan Pakistan vasitəsi ilə dünyaya çıxış əldə edə bilər.

İLHAM ƏLİYEV

Xalq şairi
Məmməd
Araz

Vətən sevdalı böyük şair – Məmməd Araz

Nə yatmısan qoca vulkan, sənինləyəm !
Ayağa dur. Azərbaycan, sənինləyəm !

Azərbaycan poeziyasında sənəti şaxələndirən, ona yeni ideyalarla nəfəs gətirən və sözün ölçüsündən məharətlə istifadə edən Məmməd Araz milli ədəbiyyatımızda söz mülkünün seçilən və sevgi ilə misraları oxunan qələm sahibləri sırasında ismini əbədiləşdirən şair kimi qəbul olundu, zamanın məsafəsində xatırlanaraq, yad olunacaq ziyalı səviyyəsinə yüksəldi. Belə bir imicə sahib olan sənətkar söz aləmində fəlsəfi görüşlər ilə yadda qaldı. Dünyanı öz ölçüsü ilə qəbul edib, bəşəri meyarlar baxımından fəlsəfi düşüncələrinə yol açdı.

Vətən sevdalı bir şairin düşüncələri misralara köçdü. İsti nəfəsi ilə nəzmə çəkdiyi misralarda pıçıltılı bir dünyadan boylanan şairin müdrik siması, portrer cizgiləri göz önündə canlanır. Azərbaycan ilə nəfəs alan, Azərbaycanın hər daşına, qayasına vurğun olan Məmməd Araz.

Bu, onun sənət meyarında insan düşüncəsini, idrakının qəbul edəcəyi dəyərləri əxz etməsi, cəmiyyətdə fikir formalaşdıraraq böyük bir insan kütləsini şeirlərin təsirində həyatla birbaşa dialoq yaratmağa qadir olan şeir nümunələri ilə insanlara aşılandı. Bu gün Azərbaycan şeirinə klassik nümunələri ilə imza atmış sənətkarın doğum günüdür. Sənətə isti misraları ilə bir rəng gətirən Məmməd Araz 14 oktyabr 1933-cü ildə dünyaya göz açmış, özünəməxsusluğu ilə seçilərək sənət dünyasında da fərdi bir iz qoya bilmişdir. Şahbuz rayonunun Nurs kəndində anadan olan Məmməd Araz doğulduğu məkanda orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutda təhsil alır. 1954-cü ildə ali təhsilini başa vuran Məmməd Araz əmək fəaliyyətinə doğma kəndindəki orta məktəbdə müəllimliklə başlayır, sonra Bakıya köçərək Azərbaycan Nazirlər Soveti yanında Baş Mətbuat İdarəsində müvəkkil işləyir. 1959-1961-ci illərdə Moskvada Yazıçılar İttifaqı nəzdindəki ali ədəbiyyat kurslarının müdavimi olur. Sonra "Ulduz" jurnalının məsul katibi, "Ədəbiyyat və incəsənət" qəzetində, Azərbaycan Dövlət Nəşriyyatında baş redaktorun müavini vəzifəsində çalışır.

Şair, tərcüməçi, publisist kimi tanıdığımız şairin keçdiyi yol onu bir ziyalı olaraq tanıtdı. 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Məmməd Araz əməkdar mədəniyyət işçisi, əməkdar incəsənət xadimi, Azərbaycan dövlət mükafatı laureatı, Azərbaycanın xalq şairi adına layiq görülür və Azərbaycan Respublikasının "İstiqlal" ordeni, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları ilə təltif edilir. Hacı Zeynalabdin Tağıyev adına milli mükafatın laureatı olur. Onun adına "Məmməd Araz" mükafatı təsis olunur. 1974-cü ildən ömrünün sonuna kimi "Azərbaycan təbiəti" jurnalının baş redaktoru vəzifəsində çalışır. Uzun müddət Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik etdi. Yaradıcılıq yolunda kitablarının işıq üzü görməsi onun bu aləmdə daha da tanınmasına səbəb oldu. "Sevgi nəğməsi", "Üç oğul atası", "Araz axır", "Mən səni taparam", "Anamdan yadigar nəğmələr", "Ömür karvanı", "İllərdən bəri, "Həyatın və sözün rəngləri", "Oxucuya məktub", "Aylarım, illərim", "Dünya sənin, dünya mənim", "Dünya düzəlmir", "Daş harayı", "Yol ayrıcında söhbət", "Sənətdə son mənzil olmur" və s. kitabları onu daha da sevdirdi və oxucularla ünsiyyətin artırdı.

AZƏRBAYCAN POEZİYASININ PARLAQ SƏHİFƏLƏRİ

Tərcüməçilik fəaliyyəti də onun yaradıcılığını şaxələndirən bir faktordur. Belə ki, o, rus poeziyasının görkəmli nümayədələrinin əsərlərini dilimizə çevirdi. S.V.Mixalkovun "Foma", M.Svetlovun "Şeirlər", N.A.Nekrasovun "Rus qadınları" və dünya şairlərinin şeirlərindən ibarət olan "Ocaq başında" kitabları Azərbaycan oxucusunu dünya ədəbiyyatına yaxınlaşdırdı. Məmməd Arazın bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya ədəbiyyatının bir sıra nümunələri ilə tanış olmaq imkanı qazandı. Eyni zamanda, şairin əsərləri ayrı-ayrı xalqların dillərinə tərcümə edilərək nəşr olundu.

Məmməd Arazın yarım əsr davam edən ədəbi yaradıcılığı XX əsr Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil etdi. Şairin xalqımızın əsrlərlə formalaşmış yüksək mənəvi dəyərlərini tərənnüm edən əsərləri insanlarımıza vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasında böyük xidmətlər göstərdi. Onun xalqa bağlılıq, milli kolorit, rəvan dil və ahəngdarlıqla səciyyələnən poeziyasında yüksək vətəndaşlıq ruhu hökm sürür. Şairin qələmindən çıxan hər bir poeziya nümunəsi özünəməxsusluğu, orijinallığı və bədii məziyyətləri ilə seçilir.

Azərbaycanda istiqlal təfəkküründün formalaşmasında və təkamülündə Məmməd Araz yaradıcılığının xüsusi rolu olub. O, xalq, cəmiyyət, milli dövlətçiliyimiz qarşısında öz məsuliyyətini dərk edən əsil xalq şairi, Azərbaycan ziyalısı oldu. Onun vətənpərvərlik hissləri təcəssümü olan şeirlərində böyük sevgisini görürük:

Nə yatmısan qoca vulkan, sənինləyəm !
Ayağa dur. Azərbaycan, sənինləyəm !
Səndən qeyri,
biz hər şeyi bölə billik.
Səndən qeyri,
Biz hamımız ölə billik.

Zamanın diktəsi ilə yazıb-yaradan şairin misralarında həyat, torpaq sevgisi ali bir hiss olaraq təqdim edilir. Çox yüksək bir emosiya ilə Azərbaycan ərənlərinə müraciətində bir cəsarət, tələb var. Bu vətən oğluna bir çağırış, ruhdur. Əli silah, külüng, yaba tutan nişanlı ərləri oyadan misralarında şair üsyanı sezilməkdədir. Qız atası olan kəslərə hanı nərən, hanı səsin, hanı andın sualını ünvanlaması onları xırdalanmaqdan, kiçilməkdən uzaqlaşdırır:

Yoxsa sən də yatmışlara, batmışlara,
Qeyrətini satmışlara xırdalandın?

- deməsi ilə vətən oğlunu ayağa durmağa səsləyir. Sərhədinə yaxşı baxmaq üçün içindəki qorxunu boğmağı, ölümlə qalımını ayırd etməsini məsləhət görür. "Dur özünü Boz Qurd elə!" qətiyyəti yetişən nəsil üçün bir qeyrət nümunəsi olacaq misradır.

DÜNYA SƏNİN, DÜNYA MƏNİM, DÜNYA HEÇ KİMİN

Məmməd Arazın məşhur olan "Dünya sənin, dünya mənim" şeirində şair fəlsəfəsi ilə baş-başa qalırıq:

Bir taleyin oyununda cütlənmiş zərik,
Yüz il qoşa atılsaq da, qoşa düşmərik.
Bir zərrənin işığına milyonlar şərik,
Dünya sənin,
dünya mənim,
dünya heç kimin...

Şairin yaradıcılığında müxtəlif məzmunlu şeirlərlə baş-başa qalırıq. Dünya, həyat və ölüm haqqında fəlsəfi düşüncələri insanı real həyatın həqiqətlərini dərk etməyə sövq edir. Bu poeziyada fikir yükü dərindir. Qarabağ dərdi, torpaqların işğalı şairin narahat dünya yaşamasına səbəb olur. İnsan etibarı, fərdlərin bir-biri ilə xoş ünsiyyəti şairin fikir dünyasını şərtləndirən amillərdir. Onun saf, ali düşüncəsindən süzülən misralarında Məmməd Araz siması açıq-aydın görünür:

Hər çətin anımda kəsin yanımı,
Axın ürəyimə gülüşlə, sözlə,
Mən öz varlığımı, öz ünvanımı
Tapıram hər yeni gəlişinizlə.

Dünyadan köç edən şairin fəlsəfi görüşləri onu oxucular arasında əbədiləşdirdi. Böyük sevgi ilə yaradan şair dünyası elə böyük sevgi ilə də əhatə olunaraq əbədiyaşarlıq hüququ qazandı. Məmməd Araz dünyası poeziyasevərlərin dünyasına köçdü. Bir ömür fəlsəfəsi milyonların həyat yolunda meyara çevrildi.

Ümummilli Lider Heydər Əliyev Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə daim yüksək qiymət vermişdir. Onun təkrarsız istedadı 1970-ci illərdə, Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə parlamışdır. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunan böyük şairə 1978-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib, 1995-ci ildə isə ümummilli lider Heydər Əliyev tərəfindən Xalq şairi Məmməd Araz "İstiqlal" ordeni ilə təltif edilib.

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alan Prezident İlham Əliyev görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar Azərbaycan ədəbiyyatının, bütövlükdə yaradıcı ziyalıların, o cümlədən Məmməd Araz sənətinin və şəxsiyyətinin böyük himayədarı, Ulu Öndər Heydər Əliyev ənənələrinin müasir şəraitdə uğurlu davamı kimi yüksək dəyərə malikdir. Böyük sənətkar 2004-cü ilin dekabrın 1-də Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

Zümrüd BAYRAMOVA

Bakcell süni intellekti ilk avtomobil qalibini seçdi!

İnnovasiya lideri Bakcell-inmeqalotereyasında ilk avtomobil – "Zeekr 001" artıq öz sahibini tapdı! Minlərlə iştirakçıarasında Bakcell süni intellektin seçimi ilə qalib CəfərCəfərzadə oldu. Bu gün o, "Şans"ını reallığaçevirdi!

Bundan əlavə, daha 2 nəfər "iPhone 17" qazanaraq qaliblər sırasına qoşulub. Ümumilikdə, avtomobildə daxil olmaqlaartıq 7 nəfər Bakcell-in meqalotereyasından hədiyyə qazanıb.

Səndə növbəti qalib ola bilərsən!

Bakcell abunəçiləri hərgün "iPhone 17", hərhəftə "Zeekr 001", finaldaisə "Porsche Cayenne" qazanmaq şansı əldə edirlər. Qalib olmaq indi çoxasandır! Səndə "Şans" paketini al və qaliblər sırasına qoşul!

Sadəcə Bakcell-in "Şans" paketlərindən birini al və şansını 8 dəfəyədəkartır:

• 1 AZN-lik "Şans" paketi – 3 şans + 10 şəbəkədaxili dəqiqə *808#3#YES
• 5 AZN-lik "Şans" paketi – 25 şans + 100 şəbəkədaxili dəqiqə *808#25#YES
• 20 AZN-lik "Şans" paketi – 150 şans + 400 şəbəkədaxili dəqiqə *808#150#YES

Ətraflı məlumat üçün: lotereya.bakcell.com

Bakcell haqqında

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri

ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Antidepressantlar və onların zərərləri NƏDİR?



Antidepressantlar orta və ağır depressiya, bəzi anksiyete pozuqluqları, obsessiv-kompulsiv pozuqluq (OKP), posttravmatik stress pozuqluğu (PTSP) və müəyyən hallarda neyropatik ağrı kimi vəziyyətlərdə effektiv, həyat keyfiyyətini yaxşılaşdıran müdaxilədir. Eyni zamanda bu dərmanların yan təsirləri, bəzi qruplarda (uşaqlar, yeniyetmələr) suicidiyal risk artımı kimi ciddi riskləri vardır. Qlobal miqyasda antidepressant istehlakı son onilliklərdə əhəmiyyətli dərəcədə artıb. Azərbaycanda isə rəsmi və dəqiq göstəricilər məhduddur. SİA mövzu ilə bağlı araşdırma aparıb.

İstifadə nisbəti ətraf ölkələrlə müqayisədə daha aşağı kimi göstərilib, lakin ölkədə psixi sağlamlıq xidmətlərinin resursları məhduddur.

1. Antidepressantların klinik faydaları

Depressiya və anksiyete: SSRİ-lər (selektiv serotonin təkrar alım inhibitorları), SNRI-lər və bəzi digər qruplar orta və ağır depressiyanın müalicəsində simptomları azaltmaq, relaps riskini azaltmaq və funksionallığı yaxşılaşdırmaq üçün təsirlidir. Davamlı müalicə ilə ölüm və ağır nəticələrin azaldılması qeydə alınmışdır (xüsusilə ağır depressiyada).

Digər göstərişlər: OKP, panik pozuqluq, PTSP və bəzi ağrı sindromlarında (məsələn, neyropatik ağrı) antidepressantların faydası klinik sınaqlarda göstərilmişdir. Psixoterapiya ilə kombinasiyası: Ən yaxşı nəticə çox vaxt dərman + psixoterapiya kombinasiyası ilə alınır — xüsusən orta dərəcəli depressiyada və anksiyetalarda.

2. Zərərləri və yan təsirləri

Ağır və tez-tez rastlanan yan təsirlər: ürəkbulanma, həzm problemləri, yuxu pozğunluqları, aktivləşmə (anksiyeta/insomniya), ağırlıq artımı (uzaq mərhələdə), və seksual funksiyanın pozulması — xüsusən SSRİ-lərdə cinsi istək azlığı və erektil disfunksiya ola bilər. Bu təsirlər müalicənin davamiyyətinə mənfi təsir göstərir.

Uşaqlar və yeniyetmələr: klinik təhlillər göstərib ki, antidepressantlar (xüsusən SSRI-lər) bəzi uşaqlar/yeniyetmələrdə suicid düşüncələrinin (ideyasının) və davranışlarının artımı ilə əlaqəli ola bilər. Buna görə bu qrupda diqqətli monitorinq tələb olunur. FDA xəbərdarlıqları da mövcuddur.

Tapaşma (withdrawal) simptomları: dərmanın kəsilməsi zamanı çox ciddi simptomlar (başgicəllənmə, zəiflik, sensor anormallıklər, emosional dəyişikliklər) ola bilər. Ədəbiyyatda tapaşmanın yayılması və şiddəti barədə fərqli qiymətləndirmələr mövcuddur; bəzi mənbələr uzunmüddətli istifadəçilərin əhəmiyyətli bir qisminin tapaşma yaşadığını bildirir.

İnteraksiya və məhdudiyyətlər: digər dərmanlarla (MAOI, triptanlar, müəyyən antibiyotika və s.) təhlükəli interaksiyalar mümkündür. Hamiləlik və laktasiya dövründə seçim və risk/benefit müzakirəsi lazımdır — bəzi SSRİ-lər nisbətən daha təhlükəsiz hesab olunur, lakin hər vəziyyət fərdi qiymətləndirilməlidir.

3. Qlobal istifadə trendləri

Artan istehlak: OECD-nin və digər tədqiqatların göstərdiyi kimi, son onillikdə antidepressant istifadəsi bir çox ölkədə əhəmiyyətli dərəcədə artıb. OECD ölkələrində 2011–2021 arası dövrdə təqribən 50% artım qeyd olunub. Bu həm depressiyanın artıq daha çox tanınması, həm də uzunmüddətli preskripsiyalarla bağlıdır.

Coğrafi dəyişkənlik: istifadə ölkədən-ölkəyə əhəmiyyətli fərqlənir — İslandir, Portuqaliya, Kanada, Avstraliya, İsveç kimi ölkələrdə yüksək nisbətlər; inkişaf etməkdə olan ölkələrdə isə ümumiyyətlə daha aşağı göstəricilər var, lakin pandemiya dövründə bir çox yerlərdə artım müşahidə edilib.

4. Azərbaycanda vəziyyət (mövcud məlumat və məhdudiyyətlər)

Rəqəmsal/statistik boşluq: Azərbaycanda antidepressant istifadəsinin tam və son statistikası beynəlxalq açıq məlumat bazalarında məhdud şəkildə mövcuddur; WHO-nun ölkə hesabatları məruzənin strukturunu və resurs məhdudiyyətlərini göstərsə də, son illərin detallı dərman istehlakı rəqəmləri məhduddur.

Regional müqayisə: tədqiqatlara görə, Qafqazda ölkələr arasında antidepressant istehlakı fərqlidir — məsələn, Azərbaycanın istehlakı Gürcüstanınkından daha aşağı qiymətləndirilə bilər (2023 tədqiqatında qeyd olunduğu kimi). Bu, həm tibbi protokolların, həm də psixi sağlamlıq xidmətlərinə çıxışın fərqliliyi ilə bağlı ola bilər.

Sistemli çatışmazlıqlar: WHO Atlas/WHO-AIMS hesabatları Azərbaycanda ruhi sağlamlıq infrastrukturu, psixiatrik mütəxəssis sayı və ilkin sahədə xidmətlərin məhdudluğunu göstərir. Bu, dərmanların düzgün istifadəsi, izlənməsi və alternativ (psixoterapiya) xidmətlərinə çıxışı təsir edə bilər.

5. Praktik tövsiyələr və nəticə

Fayda–risk qiymətləndirilməsi: Antidepressant başlamazdan əvvəl xəstənin diaqnozu, xəstəlik şiddəti, əvvəlki müalicə tarixi və komorbiditetlər qiymətləndirilməlidir. Orta/şiddətli depressiyada dərman müalicəsi adətən məqbul fayda gətirir; yüngül depressiyada isə prioritet çox vaxt psixoterapiyadır.

2. Monitorinq: xüsusilə ilk 4–12 həftədə və gənc yaş qruplarında suicid ideyalarının artımı üçün aktiv monitorinq vacibdir. Hamilə və planlaşdıran xəstələrdə fayda-risk müzakirəsi tələb olunur.

3. Uzunmüddətli idarəetmə və dayandırma: terapiyanın davam müddəti fərdi olmalıdır; relaps riski və əvvəlki epizodlar nəzərə alınmalı, dərmanların dayandırılması isə tədricən, həkim nəzarəti ilə aparılmalıdır.

4. Təhsil və alternativlər: xəstələrə dərmanların potensial yan təsirləri, seksual funksiyaya təsiri və tapaşma barədə öncədən məlumat verilməli, psixoterapiya və həyat tərzi müdaxilələri (fiziki aktivlik, yuxu, sosial dəstək) barədə məlumatlandırma aparılmalıdır.

5. Azərbaycanda tövsiyə: ölkədə daha dəqiq dərman istifadəsi statistikası və tədqiqatların aparılması, ilkin sağlamlıq xidmətlərində psixi sağlamlıq bacarıqlarının gücləndirilməsi və əhalinin maarifləndirilməsi prioritet olmalıdır.

Ayşən Vəli

PASSIVA

Pestisid və gübrə istifadəsi torpaq keyfiyyətinə necə təsir edir?

AYDINLIQ GƏTİRİLDİ

"Gübrə torpağın münbitliyini artırmaq və bitki istehsalını dəstəkləmək üçün torpağa əlavə edilən, təbii və ya sintetik yolla istehsal olunan qida maddələrinin ümumi terminidir. Tərkibində azot, fosfor və kalium kimi makronutrientlər, həmçinin bitkilərin sağlam inkişafı üçün vacib olan dəmir, sink və mis kimi mikroelementlər mövcuddur". Bu sözləri SİA-ya açıqlamasında Səma və Ekososial-İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova deyib.

Onun sözlərinə görə, təbii gübrələr heyvan peyini, kompost və yaşıl peyin kimi üzvi tullantıların emalı nəticəsində əldə olunur, sintetik gübrələr isə kimyəvi proseslərlə istehsal edilir: "Hər iki növ gübrə bitkilərin ehtiyac duyduğu əsas qida maddələrini təmin etməklə torpaqdakı qida balansını qoruyur və yaxşılaşdırır. Pestisidlər sənaye kənd təsərrüfatında yetişdirilən məhsulları potensial zərərli həşəratlardan, alaq otlarından və xəstəlik törədicilərindən qorumaq üçün istifadə edilən kimyəvi maddələr və ya mikroorqanizmlərdir. Onların tərkibində bir və ya bir neçə aktiv komponent, həmçinin həlledicilər, emulqatorlar və yapışdırıcılar olur. Bitki mühafizə vasitələri və digər məhsullar adı altında satılan bu maddələrin əksəriyyəti təbiətcə zəhərlidir.

Pestisidlər və kimyəvi gübrələr faydalı mikroorqanizmləri öldürərək torpağın strukturunu pozur, şoranlığı artırır və kimyəvi qalıqlar buraxaraq torpağın keyfiyyətinə mənfi təsir göstərir. Bunun əksinə olaraq, üzvi (təbii) gübrələr torpağın strukturunu yaxşılaşdırır, suyun saxlanmasını artırır və mikroorqanizmlərin fəaliyyətini dəstəkləyir. Bu isə uzunmüddətli dövrdə torpağın sağlamlığını qorumağa xidmət edir. Pestisidlərin və gübrələrin həddindən artıq istifadəsi yağış sularını, yeraltı və yerüstü suları çirkləndirərək su ekosistemlərinə ciddi zərər verir. Torpaq mikroorqanizmləri torpağın fiziki və kimyəvi quruluşunu tənzimləyir, onların məhv edilməsi isə torpağın tarazlığını pozur. Pestisidlər bəzən mikroorqanizmlərin fəaliyyəti ilə zərərsiz formalara çevrilə bilər, lakin bir çox hallarda onların faydalı fəaliyyətinə mane olur.

Bu maddələr kənd təsərrüfatında zərərvericiləri, alaq otlarını, göbələkləri və mikroorqanizmləri aradan qaldırmaq üçün istifadə olunur. Pestisidlər məhsuldarlığı artıra və bitki xəstəliklərinə müəyyən dərəcədə nəzarət edə bilər, lakin bu proses ekosistemlər üçün risk daşıyır.

Son illərdə pestisidlərə alternativ olaraq lavanda və kəklikotu kimi təbii otlardan istifadə tendensiyası artmaqdadır. Bu bitkilər ən təsirli təbii pestisidlərdən hesab olunur və zərərvericilərə qarşı güclü kovucu təsir göstərirlər. Pestisidlərlə zəhərlənmə halı müşahidə edildikdə dərhal həkimə müraciət edilməlidir. Çünki pestisidlərə məruz qalma uzunmüddətli sağlamlıq problemlərinə səbəb ola bilər. Bu təsirlərə beyin zədələnməsi, doğuş qüsurları, sonsuzluq, böyrək və ağciyər zədələnməsi daxildir. Üzvi gübrələr torpağın üzvi maddə tərkibini artıraraq onun su tutma və qida maddələrini saxlama qabiliyyətini gücləndirir. Bu, torpağın uzunmüddətli sağlamlığını qorumaqla davamlı kənd təsərrüfatı təcrübələrinin əsasını təşkil edir. Sağlam torpaq quruluşu və güclü bitkilər xəstəliklərə və zərərvericilərə qarşı daha davamlı olur, nəticədə pestisidlərin istifadəsinə olan ehtiyac azalır.

Nəhayət, gübrələrdən düzgün istifadə həm səmərəli əkinçilik, həm də ətraf mühitin qorunması baxımından çox vacibdir. Bu proses torpağın və yetişdirilən bitkilərin xüsusi tələbatını nəzərə almaqla gübrənin ən uyğun növünün və miqdarının müəyyən edilməsi ilə həyata keçirilməlidir. Düzgün gübrələmə bitkilərin sağlam böyüməsini təşviq edir və ekosistemlərə mənfi təsirləri minimuma endirir. Bu isə şüurlu planlaşdırma, dəqiq vaxtlama və balanslaşdırılmış tətbiq tələb edir".

Günel Fərzəliyeva

Marketlərdə satılan meyvə şirələrinin hansı təhlükələri var?

MÜTƏXƏSSİS AÇIQLADI

Meyvə şirələri bir çox insan üçün həm dadlı, həm də faydalı hesab olunan içkilərdən biridir. Xüsusilə də "100% təbii", "əlavə şəkərsiz", "konservantsız" kimi ifadələrlə təqdim olunan hazır şirələr sağlamlıq baxımından müsbət təsir bağışlasa da, bu cür məhsulların əslində nə qədər sağlam və təhlükəsiz olduğu hər zaman sual doğurur.

Məsələ ilə bağlı sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova SİA-ya açıqlamasında bildirib ki, bazarda, marketlərdə satılan meyvə şirələri həqiqətən təmizdirsə, sanitar-qigiyyena qaydalarına uyğun şəkildə çəkilibsə, üzərində 100% meyvə şirəsi yazısıyla yanaşı, əlavə şəkərsiz, konservansızdırsa və az müddət üçün bu şirələr təbii ki, istifadəyə yararlıdır, bunlardan içmək olar. Onun sözlərinə görə, ancaq hazır paketlənmiş şirələr heç də təzə meyvə tərəvəzinin və yaxud da yeni meyvə şirəsinin yerini verə bilməz, çünki onların sağlamlıq üçün bir çox riskləri var: "Birinci növbədə mütləq şəkildə, əgər meyvə şirələri alınacaqsa, onun etibarlı markanın məhsulu olduğuna diqqət etmək lazımdır, rəhv ömrü uzun olmamalıdır. Əgər təbii meyvə şirəsi şəklində çəkilibsə və bütün bu hallarda təxmini olaraq bir stəkan həcmdə 250 ml hazır şirədə 5-6, bəzən daha artıq miqdarda, çay qaşığına yaxın şəkər ola bilir ki, bu da gün ərzində qəbul ediləcək şəkər miqdarından çox olduğuna görə və xüsusilə də az yaşlara artıq miqdarda şəkər qəbul olunursa, bu, onun sağlamlıq problemlərinə gətirib çıxara bilər.Ona görə davamlı, gündəlik istifadə üçün belə şirələrdən istifadə etmək tövsiyə olunmur. Bu məqamlarda diqqət almaq lazımdır.

Ən faydalı, əgər meyvə şirəsi içiləcəksə, bu, yeni sıxılmış meyvə şirəsi olmalıdır və miqdarı keçməmək şərti ilə. Çünki bəzən yeni sıxılmış meyvə şirəsindən istifadə edərkən həddindən artıq çox meyvə istifadə olunursa, bu da lazımı miqdardan artıq vitamin, mineralın qəbuluna gətirib çıxara bilər. Eyni zamanda, meyvə şirələri həm təbii, həm də paketlənmiş liflərdən azad olduğuna görə, bu da həzm prosesinin pozulmasına gətirib çıxarır. Amma təbii meyvələrdə liflərlə zəngin olduğuna görə, bu, həzm sisteminin daha yaxşı işləməsinə, xüsusilə də bağırsaq sağlamlığı üçün ən önəmli amillərdən biridir ki, bu məqamı da yaddan çıxartmaq olmaz. Qanda şəkərin sürətlə artmasına, şəkərin həddindən artıq çox qəbul olunması nəticəsində yaranan piylənməyə, diabet riskinə səbəb ola bilər. Davamlı olaraq bu şəkildə rafin olunmuş şəkər qəbul edən insanlarda yorğunluq, aclıq, enerjinin aşağı olması və şəkərdən asılılıq yarandığına görə davamlı olaraq şəkər qəbul istəyi olur ki, bu da sağlamlığa zərər verə bilər və diş çürüməsinə də gətirib çıxara bilər.

Hazır meyvə şirələrinin tərkibində vitamin-mineral dəyəri təzəyə nisbətən azdır və demək olar ki, əgər emal prosesi keçirilərək şirə hazırlanırsa, meyvələrin tərkibində C vitaminin zəngin olduğunu bilsək də, hazır meyvə şirələrində C vitamini demək olar ki, yox səviyyəsinə çatır və bu da onun vitamin-mineral dəyərinin aşağı olmasına göstərir. Hazır meyvə şirələrində istifadə olunan süni, sintetik mənşəli rəngləndiricilər, dadlandırıcılar, aroma vericilər var ki, bunları davamlı istifadə edən insanlarda qaraciyər və böyrəyin funksiyasının pozulması ilə yanaşı, həzm sisteminin pozulması baş verir. Xüsusilə də bağırsaq florasının zədələnməsinə gətirib çıxarır, allergik reaksiyalara, dəridə səpkilərə, qaşıntıya səbəb olur və bu sintetik, mənşəli qatqı maddələri çox istifadə olunduqda baş ağrısına da gətirib çıxarır".

Arzu Qurbanlı



FELYETON

Ölmək istəyirik...

İndi durub kimməsə sual versən ki, niyə ölmək istəyirsən? Deyəcək ki, canın ölsün, mənə də qurban olasan, belə sən ələsən, gəlim halvanı yeyim, əzizin ölsün, ehsana gəlim...

Amma biz əslində ölmək istəyirik. Yuxarıdakı sual ağır gəlsə də, verəcəyimiz təqdirdə cavabımızı məhz o cür almalı olsaq da, mən deyim, siz qulaq asın ki, biz niyə ölmək istəyirik. Ay qardaşlar, ay bacılar, marketlərdə yağlar satılır, əsl demək indiki zəmanədə bir az qəbahət olar, ortabab kərə yağından dəfələrlə ucuz. Əksər insan da marketə girən kimi qaçır o yağların üzərinə. Baxırsan-baxırsan, deyirsən ki, biz həqiqətən də ölmək istəyirik.

Sırağagün marketlərdən birində sosiska vardı, endirimə düşmüşdü. Bir kiloqramı əvvəl 9, indi 6 manat olmuşdu. Daşıyanın sayı vardı, hesabı vardı... Hələ əvvəlki qiymətini düşünüb öz-özümə dedim, görəsən, bu sosiska nə ətindən hazırlanıb ki, bir kiloqramı 9 manata başa gəlir. Çox düşündüm, amma cavab tapa bilmədim.

Sosiskanı daşıyanlara baxa-baxa dedim ki, görəsən, biz niyə ölmək istəyirik?

O günləri qonşudayam. Kənddən anası zəng vurub deyir ki, bəs anan ölsün, bir gələn də yoxdur ki, sizə yumurta, pendir göndərəm. Qonşum da cavab verir ki, ay ana, səni istəməyən ölsün. Yumurtanı, pendiri nə edirəm, buralar doludur. Metrodan evədək əlli yerdə yumurta qoyublar, kənd yumurtası, qiyməti də 30-35 qəpiyə, alıb gətirirəm. Marketlərdə elə ləzzətli pendirlər var ki, sənin pendirin onların yanında heç nədir. Ta biz o pendirlərə öyrənmişik. Göndərsən də yeyə bilmərik. Əziyyət çəkib göndərmə heç.

Belə baxdım-baxdım, dedim, İlahi, biz niyə ölmək istəyirik?

Qohumlardan birinin qızı nişanlanıb. Ana da başlayıb qızına cehiz yığmağa. O gün deyir ki, qıza slikon yorğan-döşək, yastıq aldım. Nə az, nə çox, bu dəstə 600-700 manat da pul verib. Mən də dedim, axı elə bil sən yun yorğan-döşək hazırlamışdın qıza? Deyir, hazırlamışdım, hə, düzdür, amma indi qızlara yun yorğan-döşək vermirlər. Ta yun dəbdən düşüb. Nə ağ dindim, nə qara. Dedim görəsən, biz niyə ölmək istəyirik?

Aradabir evə yaxın parka gedirəm. İtlər də sahibləri ilə parka gəlirlər. Nə qədər it saxlayır camaat?.. Saxlasınlar, əlbəttə, özləri bilər. Amma arada görürəm ki, sahibləri bu itləri basıb bağrına düz ağzından öpür...

Baxıram-baxıram, deyirəm, görəsən, biz niyə ölmək istəyirik?

Mətanət Məmmədova



İrana qarşı Qərbin hərbi müdaxilə ehtimalı region üçün nə vəd edir?

Son vaxtlar Yaxın Şərqdə hərbi-siyasi vəziyyət gərgin olaraq qalır. İsrail-İran raket müharibəsi dağıdıcı nəticələrə səbəb oldu, qarşıdurma dayansa, da regional vəziyyət son dərəcə gərgin olaraq qalır. Qərbə tabe olmayan və İsrailə təslim olmayan İrana qarşı müdaxilə ehtimalı getdikcə artır. Burada Tehranın nüvə silahı yaratmaq üzrə olduğu da əsas rol oynayır ki, bu da ABŞ, Britaniya və İsrail üçün ən qəbuledilməz vəziyyətdir. Bu səbəbdən İran uranın zənginləşdirilməsini başa çatdırsa və nüvə silahını yaratmağa başlasa son anda ona qarşı hərbi təcavüz ehtimalı son dərəcə yüksək olaraq qalır. Çünki İranın nüvə silahına sahib olması Qərbin və İsralin regionda hegemonluğuna birdəfəlik son qoya bilər.

İrana qarşı hərbi təcavüzün başlaması zamanı region çox güman ki, miqrasiya böhranı ilə üzləşəcək. 90 milyonluq ölkədən azır bir neçə milyon vətəndaş qonşu ölkələrə miqrasiya edə bilər. İslam Respublikası ilə həmsərhəd olan dövlətlər, o cümlədən Cənubi Qafqaz respublikaları bundan birinci zərər çəkəcək.

Miqrasiya böhranları istənilən hərbi münaqişənin qaçılmaz müşayiətidir. Münaqişə nə qədər şiddətli və geniş miqyas alırsa, onun yaratdığı qaçqınların sayı bir o qədər çox olur. Nümunələr çoxdur- bu, 2011-ci ildə Suriyada başlayan vətəndaş müharibəsi, elə həmin il Liviyada Müəmmər Qəddafi hakimiyyətinin devrilməsi, 2021-ci ildə Əfqanıstanda amerikapərəst Əşrəf Qani rejiminin devrilməsi və Talibanın hakimiyyətə gəlməsi zamanı baş verib.

Ukraynada hərbi münaqişə də İkinci Dünya Müharibəsindən bəri ən böyük qaçqın axınına səbəb olub. Müharibə başlayandan bu ölkədən 10 milyondan artıq insan miqrasiya edib (Avropa İttifaqına- 6 milyon, Rusiyaya- 3 milyon, digər ölkələr- 1 milyon). 2002-ci ildə Ukraynada 34 milyon əhali var idisə, bu deməkdir ki, əhalinin üçdə biri miqrasiya edib.

Bütün bu böhranlar İranın hipotetik miqrasiya böhranının inkişafı üçün ehtimal olunan model hesab oluna bilər. Bunun nəticələrini İranla həmsərhəd olan Azərbaycan, Ermənistan və Türkmənistan daha çox hiss edə bilər. Onların vasitəsilə miqrasiya dalğaları MDB ölkələrinə yayıla bilər.

İranın miqrasiya böhranı yuxarıda qeyd olunan bütün hallardan daha böyük miqyasda ola bilər. Bu, böhranların təsirinə məruz qalan ölkələrin demoqrafik parametrləri ilə bağlıdır. İranın əhalisi yuxarıda adları çəkilən ölkələrin hamısından bir neçə dəfə çoxdur və onun mərkəzi geosiyasi yerləşməsi bütün Yaxın Şərqi böhran buruğanına çəkə bilər. 2025-ci ilin ortalarına olan məlumata görə, İran əhalisinin sayı 92,4 milyon nəfər təşkil edir ki, bu da onu demoqrafik potensiala görə regionun ən böyük ölkəsi edir.

İranın əhalisi Rusiyadan başqa bütün Avropa ölkələrinin əhalisini üstələyir. Bölgədə müqayisə oluna biləcək demoqrafik potensiala yalnız Türkiyə (85 milyon) malikdir. Pakistan daha böyük əhaliyə malikdir (255,2 milyon), lakin ümumiyyətlə fərqli coğrafi makroregiona - Cənubi Asiyaya aid olaraq təsnif edilir. Eyni zamanda, əhalinin sayı böhranın pisləşəcəyi təqdirdə yarana biləcək miqrasiya axınlarının miqyası ilə birbaşa bağlıdır.

2011-ci ildə qərbin təşkil etdiyi daxili qarşıdurmanın başladığı Suriya İranın miqrasiya böhranı üçün bir model sayıla bilər. Onun nəticələri Yaxın Şərqdə və müasir dünyada ən böyük miqrasiya böhranının yaranmasına səbəb oldu. BMT-nin məlumatına görə, 2018-ci ildə qonşu ölkələrdəki suriyalı qaçqınların sayı 5,5 milyon nəfərə çatıb ki, bu da onu dünyanın ən böyük qaçqın böhranlarından birinə çevirib. Bundan da yüksək hesablamaları Suriyada fəaliyyət göstərən Rusiya Müdafiə Nazirliyinin Qaçqınların Qəbul, Bölüşdürmə və Yerləşdirmə Mərkəzi verib. Onun məlumatına görə, 29 avqust 2018-ci il tarixinə 45 ölkədə 7 milyon suriyalı qaçqın qeydiyyatdadır. Onların böyük əksəriyyəti– 5,4 milyon (77%) Suriya ilə həmsərhəd olan 4 ölkədə yaşayırdı: Türkiyə (3,548,000), Livan (976,000), İordaniya (668,000) və İraqda (249,000). Bundan əlavə, təxminən 1,2 milyon daha çox suriyalı qaçqın Yaxın Şərq və Aİ-nin digər ölkələrinə köçüb. İsrail suriyalı qaçqınları qəbul etməkdən imtina edib.

Vətəndaş müharibəsi başlayanda Suriyanın əhalisi 22,5 milyon nəfər idi. Bu o deməkdir ki, suriyalı qaçqınların sayı ölkənin ümumi əhalisinin dörddə birini təşkil edir və bəzi hesablamalara görə, hazırda ölkə əhalisinin sayı cəmi 15,3 milyon nəfərdir. Suriya ssenarisi ilə götürsək 92,4 milyon əhalisi olan İrana hərbi təcavüz 23 milyon qaçqınla nəticələnəcək. Nəzərə alsaq ki, 2015-ci il qaçqın böhranı zamanı 1-1,8 milyon qaçqının gəlişi Avropada ciddi miqrasiya böhranına səbəb olub və Türkiyə 3,5 milyon suriyalı qaçqının öhdəsindən gəlməkdə çətinlik çəkib, o halda İrandan miqrasiya qonşu ölkələrdə ciddi humanitar böhran yaradacaq, onların iqtisadi sabitliyini və iqtisadi rifahını təhdid edəcək.

Əhalinin əksəriyyəti İranın qərbində və şimal-qərbində yaşadığından, İraq, Türkiyə, Ermənistan və Azərbaycanın böyük qaçqın axını ilə üzləşməsi ehtimalı yüksəkdir. Təkcə Qərbi və Şərqi Azərbaycan əyalətlərində təqribən 7,7 milyon insan yaşayır ki, bu da Ermənistanın əhalisindən (3 milyon) 2,5 dəfə çoxdur və bu vilayətlərin həmsərhəd olduğu Azərbaycan əhalisi ilə (10 milyon) müqayisə oluna bilər. İranın cənub-qərbində yerləşən və İraqın cənubu ilə həmsərhəd olan Xuzistanda 5 milyon insan yaşayır.

İranın şərq əyalətlərində də əhəmiyyətli əhali var. Məsələn, Türkmənistanla həmsərhəd olan Gülistan vilayətinin əhalisi 2 milyondan çox, Şimali Xorasanda isə 1 milyon nəfər var. Pakistanla həmsərhəd olan Sistan və Bəlucistan əyalətinin 3,2 milyon əhalisi var. İrandan böyük bir qaçqın axını Pakistan üçün ciddi demoqrafik təhlükə yaratmasa da, 2022-ci il siyahıyaalınmasına görə əhalisi cəmi 7 milyon olan Türkmənistanın sabitliyi açıq şəkildə risk altında olacaq. Türkmənistan regional standartlara görə kiçik əhaliyə malikdir, İranla geniş sərhəddi var (1148 km).

Proses Azərbaycan və Türkmənistan vasitəsilə Rusiyaya, Qazaxstana, Özbəkistana, Tacikistana və Qirğızstana da ciddi təsir edə bilər. Azərbaycan birbaşa Rusiya ilə həmsərhəddir və buraya üz tutacaq böyük qaçqın axını şimala doğru ikinci miqrasiya dalğasına səbəb ola bilər.

Həddindən artıq kiçik ərazisi və əhalisi olan Ermənistan belə miqrasiya böhranından sağ çıxmaya bilər. Bu ölkəyə son 5 ildə Azərbaycandan qayıdan 100 mindən artıq erməni böyük yük oldu. Daha 100 min də İrandan gəlsə bu Ermənistan üçün ciddi problem yaradacaq. Bu rəqəm hətta dəfələrlə böyük ola bilər.

Əlbəttə ki, ən böyük miqrasiya Azərbaycana ola bilər. Əgər orada müharibə uzansa və dağıntılar çoxalsa Azərbaycanla sərhəd olan bölgələrdə yaşayan İran azərbaycanlıları şimala üz tutacaq. Üstəlik İran əhalisinin böyük hissəsi şimal-qərbdə - Azərbaycan sərhəddinə yaxın ərazilərdə yaşayır. Burada artıq söhbətin neçə milyon nəfərdən gedəcəyini heç təxmin belə etmək olmaz.

Hər bir halda İrana baş verə biləcək müharibə bütün region üçün ciddi sosial və iqtisadi böhrana səbəb ola bilər. Bu səbəbdən heç bir ölkə İranda müharibə arzulamır,- əlbəttə okeanın o tayında olan ABŞ, Avropanın o başında olan Britaniya və regionda təkbaşına hegemonluğunu təmin etmək istəyən İsraildən başqa. Baxmayaraq ki, İran məhv edilməzdən qabaq İsraili də darmadağın edə bilər. Bu da İsraildən də böyük qaşqın dalğasına səbəb ola bilər.

Müharibələrin faciəsi əlbəttə təkcə miqrasiya və qaçqın problemi deyil, biz sadəcə mövzumuz yalnız bu olduğuna görə bu məqama toxunduq. Daha böyük faciələr isə, yüz minlərlə, bəlkə də milyonlarla insanın öləcəyi, şəhərlərin, kəndlərin xaraba qalacağı və ekoloji mühitin məhv olacağıdır. Bütün bunlar özü ilə bütün regiona xaos gətirəcək, sosial-iqtisadi vəziyyət sarsılacaq. Bu səbəbdən bütün region ölkələrin İrana qarşı müdaxiləyə qarşıdır.

Elçin Bayramlı

ARXİV

Ümumdünya Görmə Günü hər il oktyabrın ikinci cümə axşamı qeyd olunur və bu gün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə görmə zəifliyi, korluq və digər göz problemləri olan insanlara diqqət yönəltmək, bu problemlərin qarşısının alınması üçün maarifləndirmə aparmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı " istiqaməti çərçivəsində hazırlanıb.

43 milyon insan dünyanı görə bilmir

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada təxminən 43 milyon insan tam kordur. Bundan əlavə, 295 milyon nəfər ciddi görmə zəifliyindən əziyyət çəkir. 2.2 milyard insan ya qarşısı alına bilən, ya da müalicə olunmayan görmə pozuqluğuna malikdir. 1 milyard insan arasında görmə qüsuru birinci yerdədir, 65,2 milyon nəfər katarakta, 6,9 milyon nəfər qlaukoma, 4,2 milyon nəfər buynuz qişanın şəffaflığı, 3 milyon nəfər diabetik retinopatiya, 2 milyon nəfər traxoma xəstəliyi ilə yaşayır. Bundan əlavə, təxminən 826 milyon insan yaşlanma səbəbindən yaxın və uzaq məsafələrdə görmə pozuqluğu yaşayır. Artan dünya əhalisi və qocalma nisbəti ilə paralel görmə qüsuru olan insanların sayının daha da artacağı qaçılmazdır.

Dünya ölkələrinin səhiyyəsində göz sağlamlığının yaxşılaşdırılması, xəstəliklərin erkən qarşısının alınması və qarşısı alına bilməyənlərin müalicəsi və reabilitasiyası bir çox hallarda sığorta sistemi vasitəsi ilə aparılır, həyatı boyu göz xəstəlikləri və görmə pozğunluğu olanların bütün ehtiyaclarını qarşılamaq üçün effektiv müdaxilələr mövcuddur. Bu müdaxilələrdən bəziləri olduqca praktik və sərfəli olur, bir çox ölkədə sığorta ilə bütün xərclər ödənilir.

Katarakta (ağ ləkə) dünyada korluğun əsas səbəbidir, təxminən 45–50%-lik bir rəqəmlə ifadə olunur. Xüsusilə Afrika və Asiyanın isti, günəşli bölgələrində daha çox yayılıb. Qlaukoma, yəni göz təzyiqi görmə sinirinə zərər vurur, bəzən simptom vermədən korluğa səbəb olur. Ən çox Latın Amerikası, Afrika və Cənub-Şərqi Asiyada yayılıb. Diabetik retinopatiya diabet xəstələrinin görmə sinirində qan damarlarının zədələnməsi nəticəsində yaranır. ABŞ, Hindistan və Çin kimi ölkələrdə diabet artdığı üçün bu xəstəlik də çoxalıb. Yaşa bağlı makula degenerasiyası (YBMD) görmənin mərkəz hissəsini zəiflədir. Ən çox Avropa, ABŞ və Yaponiyada yaşlı əhali arasında rast gəlinir. Refraksiya pozğunluqları - miyopiya, hipermetropiya, astiqmatizm kimi xəstəliklər dünyada ən geniş yayılmış görmə problemləridir. Xüsusilə Asiyada, xüsusən də Cənubi Koreya, Yaponiya və Çin kimi ölkələrdə məktəblilərin 80–90%-ində miyopiya (uzaqgörmə zəifliyi) müşahidə olunur.

Erkən müayinə görməni mühavizə edir, ona görə 40 yaşdan sonra hər 1–2 ildən bir göz yoxlanışı vacibdir. Günəş eynəyi istifadəsinə önəm verin, Günəşin UV-A və UV-B şüaları göz bülluruna, tor qişaya və görmə sinirinə zərər verə bilər. Keyfiyyətli eynəklər bu şüaları 99–100% dərəcəsində zərərsizləşdirir. Bu həm də kataraktа, makula degenerasiyası və fotokeratit (göz yanığı) riskini azaldır.

Göz sağlamlığını qorumaq üçün qidalanma çox böyük rol oynayır, çünki görmə orqanının sağlam qalması üçün bədənə müəyyən vitaminlər, minerallar və yağ turşuları lazımdır. Sağlam qidalanma, A, C, E vitaminləri və omeqa-3 yağ turşuları göz sağlamlığına müsbət təsir edir. Məsələn, A vitamini (beta-karotin) gecə görməsini qoruyur, göz quruluğunun qarşısını alır. Əgər yerkökü, balqabaq, şirin kartof, ispanaq, yumurta sarısı, qaraciyər kimi qidalar yesəniz gecələr də dəqiq görə bilərsiniz. C vitamini retina hüceyrələrini sərbəst radikallardan qoruyur, katarakta riskini azaldır. Siz C vitaminini portağal, kivi, çiyələk, bibər, brokkolidən ala bilərsiniz. E vitamini görmə sinirini qoruyur, hüceyrə zədələnməsini azaldır, ona görə də bol miqdarda badam, fındıq, günəbaxan tumu, avokado yemək lazımdır.

Omega-3 yağ turşuları (EPA və DHA) Retina hüceyrələrinin, yəni torlu qişanın fəaliyyətini gücləndirir, quru göz sindromuna qarşı qoruyur, qızılbalıq, skumbriya, ton balığı, çia toxumu, kətan yağı kimi qidalarda bu yağ turşuları daha çoxdur. Sink də (Zn) Görmə piqmentlərinin sintezi üçün vacibdir, makula degenerasiyasının qarşısını alır , mal əti, yumurta, dəniz məhsulları, qoz-fındıq ilə qidalanaraq bu piqmentləri də qoruya bilərsiniz. Şəkər və təzyiqin nəzarətdə saxlanması diabetik və damar mənşəli problemlərin qarşısını alır.

Həddindən artıq şəkərli və duzlu qidalar gözlərin Retina hüceyrələrini, damar sistemini zəiflədir. Retina və ya torlu qişa — gözün arxa hissəsində yerləşən çox nazik, amma çox vacib sinir təbəqəsidir. Ona gözün beyin ilə əlaqə yaradan hissəsi də deyə bilərik. Siqaret istifadəsi də retina hüceyrələrini zədələyir, qəhvənin və enerjili içkilərin çox istifadəsi göz təzyiqini artırır. Su az içmək göz quruluğu və gözdə yanma hissi yaradır.

Unutmayın, göz insan orqanizminin ən mürəkkəb və ən dəyərli orqanlarından biridir. O bizi xoşbəxt edən hormonların yaranmasına da səbəb olur. Belə ki, görmə bacarığı emosional vəziyyətə və yaddaşa birbaşa təsir edir. Sevdiyiniz bir insanın üzünü görmək və ya gözəl bir təbiət mənzərəsini izləmək beyində serotonin, dopamin ifraz edir ki, bu da insan xoşbəxtliyi üçün əhəmiyyətlidir. Görmək bizi daha çox sosiallaşdırır, daha çox oxuyuruq, daha çox müşahidə edə bilirik. Görmə qabiliyyətimizi qorumaq həm də dünyaya baxışımızı, ünsiyyətimizi, ruh sağlamlığımızı qorumaq deməkdir.

Lalə Mehralı

SON SƏHİFƏ
SƏS
14 oktyabr
2025-ci il

Hansı peşələr artıq unudulmaq üzrədir?

Texnologiyanın sürətli inkişafı və həyat tərzinin dəyişməsi bir çox ənənəvi peşələrin geriləməsinə səbəb olur. Hər bir peşə müəyyən bacarıq və biliklərin nəticəsidir, lakin zamanla yeni texnologiyalar və dəyişən iqtisadi şərtlər bəzi sahələri köhnəlmiş hesab etdirir.

Ekspert açıqladı

Bu dəyişikliklər Azərbaycanda da özünü göstərir və əmək bazarını yenidən formalaşdırır. Bəs, hansı peşələr artıq unudulmaq üzrədir?

Məsələ ilə bağlı təhsil eksperti Məzahir Məmmədli SİA-ya açıqlamasında bildirib ki, artıq 21-ci əsrin 30 ilinə yaxın bir hissəsini geridə qoyuruq. Onun sözlərinə görə, bu dövr ərzində texnologiyanın, xüsusilə də süni intellektin, rəqəmsallaşmanın və avtomatlaşdırmanın sürətli inkişafı cəmiyyətin bütün sahələrinə təsir göstərməkdədir: ”Bu təsirlər təkcə inkişaf etmiş ölkələrlə məhdudlaşmır, həmçinin Azərbaycan kimi inkişaf yolunda olan ölkələrdə də özünü göstərir. Yeni texnologiyalar əmək bazarına, təhsil sisteminə və ictimai münasibətlərə tədricən nüfuz edir və bu sahələrdə müəyyən dəyişikliklərə səbəb olur.

Hazırda Azərbaycanda texnoloji transformasiya prosesi tam gücü ilə baş verməsə də, artıq ilkin mərhələlərdə əhəmiyyətli addımlar atılır. Xüsusilə ali təhsil müəssisələri bu prosesin önündə gedərək süni intellekt, data analitikası, proqramlaşdırma və digər rəqəmsal bacarıqların tədrisinə başlayıblar. Bu istiqamətdə aparılan islahatlar və tədris proqramlarında edilən dəyişikliklər, yaxın gələcəkdə əmək bazarında ciddi nəticələr verəcək potensiala malikdir. Bütün bunlar onu göstərir ki, süni intellekt və digər yeni texnologiyalar artıq yalnız texniki bir anlayış deyil, həm də sosial, iqtisadi və mədəni həyatımıza təsir edən mühüm bir qüvvəyə çevrilməkdədir”.

Arzu Qurbanlı

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. PressaİnformMMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Moped sürmək istəyənlərə XƏBƏRDARLIQ - sürücülük vəsiqəsi tələb olunacaq

Azərbaycanda moped idarə etmək üçün sürücülük vəsiqəsinin tələb olunması nəzərdə tutulur. SİA xəbər verir ki, bununla bağlı "Yol hərəkəti haqqında" qanuna dəyişiklik təklif edilib. Sənəd Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılıb.

İclasda bildirilib ki, qanun layihəsinin əsas məqsədi moped nəqliyyat vasitələrinin istismarına dair tənzimləmələrin təkmilləşdirilməsi, sürücülərin bilik və bacarıqlarının artırılması və ümumilikdə yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsidir. Belə ki, sənəddə təklif edilən mühüm dəyişikliklərdən biri moped idarə etmək üçün sürücülük vəsiqəsinin alınmasının tələb olunmasıdır. Bu dəyişiklik sürücülərin müəyyən bilik və bacarıqlara malik olmalarını təmin edəcək və nəticə etibarilə yol hərəkəti təhlükəsizliyini artıracaq.

Digər edilən təkliflərə görə moped nəqliyyat vasitəsinin anlayışı daha dəqiq müəyyən edilməsi, mopedlər dövlət qeydiyyatına alınaraq uçota götürülməsi nəzərdə tutulur. Həmçinin qanun layihəsində mopedlər üçün əvvəllər mövcud olan yalnız yolun sağ kənar zolağı ilə hərəkət etmək tələbinin aradan qaldırılması nəzərdə tutulur. Bundan başqa, sözügedən qanun layihəsində motosikletin və mopedin uzunlu və ya eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya motosikleti, mopedi idarə etməyə mane olan yük aparmaq qadağan edilir.

“Mançester Yunayted” satılır – 6 milyard dollara...

Qleyzer ailəsi Cim Ratkliff ilə bağlanan razılaşmanın şərtlərinə əsasən “Mançester Yunayted” klubunu 2027-ci ilədək sata bilər. SİA xəbər verir ki, bu barədə “The Athletic” məlumat yayıb. Klubun səhmdar strukturu iki növ səhm sinfinin mövcudluğunu nəzərdə tutur – A və B sinfi. A sinfi səhmlər B sinfi səhmlərlə müqayisədə 10 dəfə az səsvermə hüququ verir. B sinfi səhmlərin əksəriyyəti Qleyzer ailəsinə məxsusdur. Hazırda ailə B sinfi səhmlərin 71,04 faizinə və A sinfi səhmlərin 3,04 faizinə sahibdir. Bu, onların klubun ümumi səhmlərinin yarısından azına malik olmalarına baxmayaraq, 67,91 faiz səsə nəzarət etməsini təmin edir. Cim Retkliffə məxsus “INEOS Limited” şirkəti isə hər iki sinif üzrə təxminən 29 faiz səhmlərə malikdir. 2024-cü ilin fevralında bağlanmış müqaviləyə əsasən, Ratkliff ilin sonunadək 300 milyon dollar həcmində investisiya yatırmalıdır. Razılaşmaya görə, investisiyaların tam ödənilməsindən 18 ay sonra sürükləmə mexanizmi qüvvəyə minir. Bu hüquq Qleyzerlərə klubun tam satışında Retkliffi də məcburi şəkildə prosesə daxil etməyə imkan verir. Əgər satış 2027-ci ilin fevralınadək baş tutarsa, bir səhm üçün qiymət 33 dollardan aşağı ola bilməz. Retkliff kluba məhz bu qiymətlə daxil olmuşdu.

Klubun tam satışı halında dəyərin 5,7–6 milyard dollar aralığında olacağı gözlənilir. Potensial alıcılar arasında Qətərdən şeyx Casim bin Həmad əl-Tani, Səudiyyə Ərəbistanı və BƏƏ-dən investorlar, həmçinin iri investisiya fondları və varlı şəxsi investorlar göstərilir.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000